www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 aprel 2017-ci il Cümə axşamı № 82 (6696) Qiymәti 60 qəpik

**Xəbər**

Milli Şuranın mitinqlərində iştirak edənlər cəzalandırılacaq - ilginc xəbərlər

yazısı səh.6-da

**Gündəm**

## "Exchange"lər bərpa olunur



Milli Məclisə yeni qanun layihəsi təqdim edilib; **Vahid Əhmədov:** "Bu, manatın məzənnəsinə ciddi təsir göstərməyəcək"

yazısı səh.8-də

## Qarabağ qaytarılsa, Azərbaycan Avrasiya İttifaqına qoşula bilərmi...

yazısı səh.6-da

## İqtisadiyyatın önünü kəsən "əjdaha": monopoliya

yazısı səh.4-də

## Müxalifət partiyaları nə işlə məşğuldur...

yazısı səh.6-da

## Araz Əlizadəni "qəhrəman" edən gücü...?

yazısı səh.3-də

## "Azərbaycan nüvə başlıqlı raketlərə malik olmalıdır" - ekspetdən ilginc təklif

yazısı səh.11-də

## Taksilərdə vahid tarif necə tətbiq olunacaq...

yazısı səh.3-də

## Şimali Koreya Rusiya və İranın "qanının arasına" girdi...

yazısı səh.10-da

## Qız qaçırma "adəti" azərbaycanlıların həyatını necə qaraldıb...

yazısı səh.12-də

## Bakıda qızılın qiyməti ucuzlaşıb: bu, nə qədər davam edəcək...

yazısı səh.15-də

## Referendumun nəticələri Türkiyədə terror təhlükəsini artıra bilərmi...

yazısı səh.10-da

## Müxalifətçi mühacir Macarıstan səfirliyinə rüşvət verib?

# AXCP-DƏ MÜHACİR SKANDALI - PARTİYA ÜZVÜNDƏN DƏHŞƏTLİ AÇIQLAMALAR!

**Tural Hüseynov:** "Qənimət Zahidə yazdım, Eldəniz Quliyevə dedim, Əli Kərimli ilə görüşdüm, ...pulumu"; mühacir jurnalist Fikrət Hüseynli partiya üzvü olan gəncə qarşı dələduzluq edib; işin içində Bakıdakı bir turizm şirkəti də var




yazısı səh.5-də

## Rusiya Azərbaycanın hərbi təlimlərinə Ermənistandan və Xəzərdən cavab verdi

Silahlı Qüvvələrimizin manevrləri fonunda Kreml də işğalçı ölkənin döyüş qabiliyyətini yoxlamaq qərarı verdi; Rusiyanın Xəzər donanması Azərbaycanla sərhəddə artilleriya təlimlərinə başladı; təlimlərə qarşı təlimlərin pərdəarxasında nələr var?

yazısı səh.9-da



*Aqil Abbas:*

## "Olmayan Ağdam və olan Tovuz..."

yazısı səh.3-də



Qüdrət Şükürov

## Lift idarəsinin rəisi qızına etdiyi 400 minlik toydan danışdı...

yazısı səh.12-də



Bəxtiyar Sadıqov

## İqtidar deputatı "Reuters"in Azərbaycan əleyhinə məqaləsinə sərt cavab verdi

yazısı səh.7-də



## Prezident Gənclər Fonduna 3 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Prezident yanında Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, gənclər təşkilatlarının və 16-29 yaşlı fiziki şəxslərin təqdim etdikləri layihələrin maliyyələşdirilməsi üçün Prezidentin ehtiyat fondundan Prezident yanında Gənclər Fonduna 3 milyon manat ayrılıb.

## Şəxsiyyət vəsiqəsi ilə xaricə getmək mümkün olacaq




**Gələn il yanvarın 1-dən Azərbaycan vətəndaşları bəzi ölkələrə şəxsiyyət vəsiqəsi ilə gedə bilərlər. «Trend» xəbər verir ki, "Azərbaycanın Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihəsinə əsasən, xarici dövlətlərlə müvafiq beynəlxalq müqavilə bağlanmış olduğu halda, Azərbaycan vətəndaşının şəxsiyyət vəsiqəsindən də vətəndaşın ölkədən getmək və ölkəyə gəlmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulan sənəd kimi istifadə oluna bilər. Bu dəyişikliyin 2018-ci il yanvarın 1-dən qüvvəyə minməsi təklif edilir.**

Məcəlləyə bu dəyişiklik "Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin və 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanunun icrası ilə əlaqədar təklif edilir.

Bu qanun layihəsi Milli Məclisin mayın 25-də keçiriləcək plenar iclasında müzakirə ediləcək.

Qeyd edək ki, hazırda vətəndaşın ölkədən getmək və ölkəyə gəlmək hüququ Azərbaycan vətəndaşının pasportu ilə həyata keçirilir.

## "Özəl kredit bürosu daha çox əhalini əhatə edəcək"

**Azərbaycanda kredit bürosunun yaradılması maliyyə sabitliyinin təmin edilməsi, öhdəliklərin icrası ilə bağlı uzunmüddətli məlumat bazasının formalaşdırılması baxımından çox vacibdir.**

"Report"un məlumatına görə, bunu Bakıda keçirilən Azərbaycanın ilk özəl kredit bürosunun təsis edilməsinə həsr olunmuş tədbirdə Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) baş icraçı direktorunun müavini Asim Zülfüqarov deyib.

Onun sözlərinə görə, hazırda Azərbaycanda yetkin əhalinin 36%-i kredit məlumatlarına malikdir: "Özəl kredit bürosu isə daha çox əhalini əhatə edəcək. Maliyyə qurumları risklərini daha yaxşı qiymətləndirə biləcəklər".

## Bakı-Qazax yolunda mikroavtobus aşıb, 7 nəfər xəsarət alıb

**Bakı-Qazax yolunda 7 nəfərin xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. APA-nın Aran bürosunun xəbərinə görə, hadisə yolun Ucar rayonunun Müsüslü kəndindən keçən hissəsində qeydə alınıb.**

"Mercedes Vita" markalı mikroavtobus idarəetmədən çıxaraq yol kənarına aşıb.

Nəticədə 7 nəfər- 2 qadın, 5 kişi xəsarət alıb. Onlar Ucar Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.

Faktla bağlı araşdırma aparılır.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Aprel şəhidinin atası oğul itkisinə dözə bilmədi

**Ötən ilin aprelində övladının tabutu bükülmüş bayrağı öpən ata dünən axşam vəfat edib. Modern.az-ın məlumatına görə, aprel döyüşlərində şəhid olmuş gizir Bəxtiyar Hüseynovun atası Rafael Hüseynov Goranboy rayonunun Qızılhacılı kəndində yaşadığı evdə dünyasını dəyişib.**

Mərhumun həmkəndliləri deyiblər ki, şəhid atası oğlunun ilindən bir neçə gün qabaq onun məzarı üstünə gedibmiş. Qayıdanda yolda yıxılıb. Rafael kişinin iflic olduğu deyilir. O, oğlunun ili çıxandan 9 gün sonra vəfat edib.



Şəhid gizir Bəxtiyar Hüseynov 1995-ci ilin 14 iyul tarixində Goranboy rayonunun Qızılhacılı kəndində anadan olub. 2016-cı il aprelin 2-də Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı qəhrəmancasına şəhid olub. Aprelin 9-da doğulduğu Goranboy rayonunun Qızılhacılı kəndində dəfn edilib.

Şəhid Bəxtiyar Hüseynov ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilib.

## Maliyyə hesabatı verməyən partiyalar

**Novator.az-ın məlumatına görə, aprelin 19-dək Mərkəzi Seçki Komissiyasına 44 partiya 2016-cı il üzrə illik hesabat təqdim edib.**

Partiyalar hər il aprelin 1-dək illik maliyyə hesabatı təqdim etməlidir. Ölkədə dövlət qeydiyyatına alınmış 55 siyasi partiya var.

Aprelin 4-dək MSK-nın saytında 32 siyasi partiyanın maliyyə hesabatları yer almış, aprelin 13-dək hesabat təqdim edən partiyaların sayı 42-yə çatmışdı.

Novator.az MSK-ya hesabat verməyən 11 partiyanın siyahısını təqdim edib:

Azərbaycan Dirçəliş və Tərəqqi Partiyası

Milli Demokrat İdrak Partiyası

Azərbaycan Kəndli Partiyası

Vahid Azərbaycan Partiyası

Müstəqil Azərbaycan Partiyası

Milli Qurtuluş Partiyası

Azərbaycan Milli Hərəkat Partiyası

Azərbaycan Milli Dövlətçilik Partiyası

Azərbaycan Vətənpərvərlər Partiyası

Azərbaycan Demokratik Sahibkarlar Partiyası

Azərbaycan Tərəqqi Partiyası.

## Bakıda bina tikintisi zamanı fəhlə yıxılaraq ölüb

**Bakıda bina tikintisi zamanı fəhlə yıxılaraq ölüb. "Report"un xəbərinə görə, hadisə paytaxtın Xətai rayonu, N.Tusi küçəsində qeydə alınıb.**

Orada tikilməkdə olan binada fəhlə işləyən 1984-cü il təvəllüdlü Şəhriyar Əliyev binanın beşinci mərtəbəsindəki liftin şaxtasından yıxılaraq ölüb.

Hüquq-mühafizə orqanları faktla bağlı araşdırma aparır.

Qeyd edək ki, həmin bina "Amal" MTK tərəfindən inşa edilir.



## Əli İnsanovun məhkəmə istintaqı başa çatdı

**Sabiq səhiyyə naziri Əli İnsanovun cinayət işi üzrə məhkəmə davam edib. Lent.az-ın məlumatına görə, Qaradağ Rayon Məhkəməsində hakim Rəşad Mustafayevin sədrliyi ilə keçirilən prosesdə sənədlərin tətbiqi mərhələsi keçirilib.**

Əli İnsanovun vəkili Toğrul Babayev zərərçəkmiş şəxs Anar Məmmədovdan prokurorluqda nə zaman ifadə verməsini soruşub. Vəkil bildirib ki, işdə olan sənədlərdən göründüyünə görə, A.Məmmədov 35 gün xəstəxanada yatıb.

Anar Məmmədov isə suala cavab olaraq deyib ki, hadisədən iki gün sonra prokurorluqda ifadə verib.

Vəkil Ağaveyis Şahverdi isə deyib ki, Ə. İnsanovun cırdığı deyilən protokol da iş materiallarında yoxdur. Hakim həmin protokolun maddi sübut kimi saxlanıldığını söyləyib.

Daha sonra sabiq nazirin vəkilləri bir neçə vəsatətlə çıxış ediblər. Bunlar təmin edilməyib.

Məhkəmə istintaqın başa çatdığı elan edilib. Çıxışlar mərhələsi gələn prosesə saxlanılıb. Prokuror gələn proses sabiq səhiyyə nazirinə cəza istəyəcək.

Məhkəmə aprelin 26-da davam edəcək.

Qeyd edək ki, Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs edilib. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham olunub. 2007-ci ilin aprel ayında Ə.İnsanov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə əmlakı müsadirə olunmaqla və 3 il ərzində dövlət vəzifəsi tutması qadağan edilməklə, 11 il müddətinə azadlıqdan məhrum olunub.

Ötən il avqustun 24-də - azadlığa çıxmasına 2 ay qalmış Ə.İnsanova yenidən Cinayət Məcəlləsinin (CM) üç maddəsi ilə ittiham irəli sürülüb.

## Keçmiş polis rəisi ağır qəzada öldü

**Göyçay rayonunun Xəlitli kəndində ölümlə nəticələnən avtomobil qəzası baş verib. ARB TV xəbər verir ki, rayonun Çayarxı kənd sakini, 38 yaşlı Xəyal Məmmədov "Toyota Camry" markalı minik avtomobili ilə hərəkətdə olarkən idarəetməni itirib və avtomobil yoldan çıxaraq su arxına düşüb.**

Sürücü aldığı ağır xəsarətlər səbəbindən hadisə yerində dünyasını dəyişib.

Qeyd edək ki, Xəyal Məmmədov Göyçay Rayon Polis Şöbəsinin Pasport Qeydiyyat Şöbəsinin rəisi vəzifəsində çalışıb və bir ay öncə işdən azad edilib.

## QHT Şurası məlumatlandırma sessiyası keçirdi

**Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurası QHT-lər üçün 2017-ci il ikinci qrant müsabiqəsi ilə bağlı məlumatlandırma sessiyası keçirib.**

Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov çıxış edərək ikinci qrant müsabiqəsinin mövzuları, şərt və qaydaları haqqında ətraflı məlumat verib. İcraçı direktor hər bir istiqamət üzrə mövzuların əhatə dairəsi, layihələrdə problemin qoyuluşu və QHT-lərdən gözlənilən ideya və təşəbbüslərlə bağlı fikirlərini bildirib.

Sessiyada QHT-lərin müsabiqə ilə bağlı sualları cavablandırılıb.

## Binəqədidəki dəhşətli yanğınla bağlı cinayət işi birinci instansiya məhkəməsinə qaytarıldı

**Bakı Apelyasiya Məhkəməsində Binəqədi rayonunda yaşayış binasında baş verən yanğınla bağlı təqsirləndirilən şəxslərin apelyasiya şikayəti üzrə məhkəmənin ilkin baxış iclası keçirilib.**

APA-nın məlumatına görə, hakim İlqar Murquzovun sədrlik etdiyi iclasda təqsirləndirilən şəxslərin vəkilləri vəsatətlə çıxış edərək məhkəmə iclas protokollarında bəzi imzaların olmadığını deyiblər və işin yenidən Bakı Ağır Cinayətlər Məhkəməsinə qaytarılmasını istəyiblər.

Məhkəmə vəsatəti təmin edib və iş birinci instansiya məhkəməsinə qaytarılıb.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə təqsirləndirilən, "Qlobal Stone" və "Global Constuction" MMC təsisçisi Miryusif Mahmudov 3 il rəhbər vəzifə tutmaq hüququndan məhrum edilməklə, 8 il azadlıqdan məhrum edilib.

Digər təqsirləndirilənlər - Uğur Beşirov 5 il, Ələkbər Əsgərov, Qəzənfər Novruzov və Ədalət Rəcəbovun hər biri 4 il, Nizami Orucov isə 3 il 6 ay müddətinə azadlıqdan məhrum olunublar, Ağacavad Məmmədov və Akif Əlibəyova şərti cəza müəyyənləşib.

Bundan başqa, dövlət ittihamçısı təqsirləndirilən şəxslərin əmlakının müsadirə olunmasını tələb etməsə də, məhkəmə öz təşəbbüsü ilə dövlətə dəyən 8,7 milyon manatlıq ziyanın qarşılığında həmin şəxslərin əmlaklarının müsadirə olunması haqda qərar çıxarıb.

Zərərçəkmişlərin mülki iddiaları isə baxılmamış saxlanılıb. Uğur Beşirovun atasından qalan evin, M. Mahmudovun torpaq sahələri, mənzilləri və digər təqsirləndirilənlərin əmlaklarının müsadirə olunmasına qərar verilib.

İbtidai istintaq zamanı bu şəxslərin əmlaklarına həbs qoyulsa da, dəyəri müəyyən olunmayıb.

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017



# Taksilərdə vahid tarif necə tətbiq olunacaq...

## Mais Ağayev: "Bakı şəhərində taksi xidmətini paytaxtın ümumi inkişafına uyğunlaşdırmaq üçün komplekt tədbirlər nəzərdə tutmuşuq"

**Bakı Nəqliyyat Agentliyi (BNA) paytaxtda fəaliyyət göstərən taksilərdə vahid tarifin tətbiq olunması ilə bağlı Nazirlər Kabinetinə və İqtisadiyyat Nazirliyinə müraciət edib. Bunu "APA-Economics"ə müsahibəsində BNA-nın baş direktoru Vüsal Kərimli bildirib. V. Kərimov qeyd edib ki, qeyri-qanuni taksi fəaliyyətinə son qoyulacaq və heç bir sürücü istədiyi vaxt maşının damına "şahmat" qoyub, taksi fəaliyyəti göstərməyəcək.**

Qeyd edək ki, paytaxt sakinləri taksi sürücülərinin qeyri-etik davranışları və digər bu kimi məsələlərlə bağlı sosial şəbəkələrdə çoxsaylı şikayətlər yazırlar. Bu məsələ ictimaiyyətdə də dəfələrlə müzakirə edilib. Həmçinin Bakıda taksi fəaliyyətini nizama salmaq üçün daha öncələr də xeyli addımlar atılıb, lakin bu, müvəffəqiyyətlə tamamlanmayıb. Taksi sürücüləri bir neçə dəfə nəzərdə tutulan dəyişikliklərə etiraz aksiyalar keçiriblər və istəklərinə nail olmağı bacarıblar.

**Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev "Yeni Müsavat"a bildirib ki, onlar kompleks şəkildə tədbirlər həyata keçirirlər:**

"Taksi duracaqlarının müəyyənləşdirilməsi, mövcud olanların pasportlaşdırılması ilə bağlı fasiləsiz olaraq Bakı Nəqliyyat Agentliyində işlər davam etdirilir. Həftə boyu bizim əməkdaşlar şəhərdə müvafiq dövlət qurumlarının əməkdaşları ilə birlikdə araşdırmalar aparırlar. Hansı yerdə taksi duracağı üçün zərurət varsa, onlar müəyyənləşdirilir və dövlət qurumuna müraciət olunur. Vahid tarif planı ilə bağlı isə onu deyim ki, bu, bir çoxları tərəfindən yanlış anlaşılır. Bir çoxları düşünürlər ki, vahid taksi xidmətləri təyin olunarsa, o halda artıq taksilər arasında rəqabət olmayacaq. Xeyr, bu belə deyil. Bu gün vəziyyət belədir ki, sifarişli taksi xidməti göstərən əksər şirkətlər sərnişinləri münasib qiymətə aparsalar da onların göstərdiyi xidmətin səviyyəsi insanları qane etmir. Bunu da biz "141" qaynar xəttinə və digər vasitələrlə agentliyə daxil olan şikayətlər əsasında deyirik. Yaxud də əksər hallarda müşahidə edilir ki, nəqliyyat vasitələri yararsız vəziyyətdə olur. Bundan başqa, tez-tez müşahidə olunur ki, sürücülər yolları belə tanımayıb, naviqasiya sistemindən istifadə edə bilmirlər. Bütün bunlardan isə sərnişinlər əziyyət çəkirlər. "A" nöqtəsindən "B" nöqtəsinə getmək üçün şəhərin ehtiyac olmayan yollarından istifadə edirlər. Bu kimi narazılıq doğuran məqamlar az deyil".

**M. Ağayev bildirib ki, keyfiyyətdə rəqabət olarsa, sifarişli taksi xidməti göstərən şirkətlər də məcbur olacaqlar ki, peşəkar sürücüləri işə cəlb etsinlər:**

"Eyni zamanda artıq onlar nəqliyyat vasitələrini də vaxtı-vaxtında yeniləyəcəklər ki, hər hansı bir problem yaranmasın. Bu gün biz Bakı şəhərində taksi xidmətini paytaxtın ümumi inkişafına uyğunlaşdırmaq üçün komplekt tədbirlər nəzərdə tutmuşuq. Müvafiq tələb və təkliflər hazırlanıb ki, bunlar həm taksi minik avtomobilləri, həm də sürücülərlə bağlıdır. Bizim mövqeyimiz ondan ibarətdir ki, əgər bu tələblər yerinə yetirilərsə, əhaliyə göstərilən taksi xidməti ən müasir səviyyəyə çatdırılacaq".

**Nəqliyyat üzrə ekspert İlqar Hüseynli isə "Yeni Müsavat"a bildirib ki, vahid tarif planının tədbir edilməsi bir çox ölkələrdə mövcuddur:** "Dünyanın hər yerində mövcud olan taksi xidməti ilə bağlı yanaşma var. Yəni şəhərdaxili yollarda vahid tariflər tətbiq olunur. Ancaq burada bir şey var ki, öncədən taksiyə əyləşən kimi xidmət haqqı, daha sonra isə gedilən yola görə məbləğ hesablanır. Bunun özü də normal haldır. İnkişaf etmiş ölkələrdə bu sistem var. Lakin Azərbaycanda məsələnin müzakirəsində bir şeyə də diqqət etmək lazımdır ki, bir çox insanlar məhz taksi fəaliyyəti göstərərək ailələrini saxlayırlar. Onları da işlərindən məhrum etmək olmaz. Ölkə əhalisinin xeyli hissəsi işsizlikdən əziyyət çəkir. Həmin insanlar fərdi taksi fəaliyyəti ilə məşğul olurlarsa, onları da sistemə cəlb etmək lazımdır. Yəni yaxşı olar ki, onlar bu işdən kənarda qalmasınlar. Bu gün yaxşı haldır ki, mərkəzləşmiş taksi fəaliyyəti var. Müəyyənləşmiş nömrəni yığırıq və taksi gəlib olduğun yerdən səni mənzilbaşına qədər aparır. Fərdi taksilərin də mərkəzləşmiş sistemə qatılmaları üçün şərait yaradılmalıdır".

❑ **Əli RAİS**

# Olmayan Ağdam və olan Tovuz...



**Aqil ABBAS**

**Olmayan Ağdam "Qarabağ" komandasının arxasında dayandı, komandanı məhv olmaqdan qorudu, yaşatdı və Avropa meydanlarına daşıdı. Təbii ki, xeyirxah insanların köməyi ilə. Olmayan Ağdamın icra başçısı Həsən Sarıyev bu komanda üçün olmazların olmazlarını elədi. "NNN bank"ın prezidenti Nazim Abdullayevin və "Əmrahbank"ın prezidenti Yusif İldırımzadənin böyük ürəkləri bu komanda ilə bir vurdu. Bugünkü "Qarabağ" da göz qabağındadı.**

Tovuzun "Turan" komandası birinci divizyonda çempion oldu və yüksək liqaya vəsiqə qazandı. Təbii ki, yüksək liqada çıxış etmək üçün çox şərtlər var. Bütün bu şərtlərin başında da maliyyə durur. İndi mətbuatda komanda rəhbərlərinin ruh düşkünlüyünə rast gəlirəm. Doğrudan çox ağırdı, bir o qədər əziyyət çək, sonda zəhmətin puça getsin.

Tovuzda həmişə futbol olub. Özü də yaxşı futbol olub. "Turan" hələ SSRİ dönəmində də Azərbaycanın güclü komandalarından biri idi.

Hətta bir dəfə futbolçuları ağır yol qəzasına düşüb həlak oldular, amma "Turan" sınmadı, yenidən toparlandı, yenidən yaşıl meydanlarda öz sözünü dedi.

Olmayan Ağdam "Qarabağ"ı saxlaya bildisə, doğrudanmı olan Tovuz "Turan"ı saxlaya bilməyəcək?!

Tovuz qərb bölgəsinin ən varlı rayonlarından biridi. Bu rayonu da, bu rayonun adamlarını da çox yaxşı tanıyıram. Çoxlu da dostlarım var və özü də hamısı sədaqətli dostlardı. Və Tovuz camaatı yaxşı yaşamağı da bacarır. Həm də qonaq-qara sevən camaatdı, çörəkli camaatdı.

Təxminən 30-35 il əvvəl bir qohumum Tovuzda orta bir vəzifədə işləyib bir müddət. Hələ də Tovuz camaatı onun xətir-hörmətini saxlayır, hələ də onun övladlarının təknəsində Tovuz camaatının da bir parça çörəyi var.

Həm sovet dönəmində, həm də elə indi Tovuzda çox imkanlı adamlar olub və olacaq. Həmin imkanlı adamlar bir yerə yığılmalıdır və "Turan"a dəstək olmalıdır. Bu işdə hörmətli millət vəkilimiz Qənirə xanımın çabalarını alqışlayıram.

Dünyadı, ola bilər ki, kimlərsə yaxalarını kənara çəkə bilər. Onda da bir çıxış yolu var.

"Turan" kluba çevrilməlidi. İnanın, kluba çevrilsə, minlərlə tovuzlu həmin kluba üzv olmaq istəyəcək; ən kasıbından tutmuş, ortabab yaşayanından varlısına qədər. Klub üzvlərinin üzvlük haqqı ilə də "Turan"ı normal saxlamaq mümkündü.

"Varın verən utanmaz" deyə vaxtilə "Qarabağ"ı belə saxlaya bilmişdik. Olmayan Ağdamın komandasını. İndi olan Tovuz doğrudanmı adını Azərbaycan futbol tarixinə yazmış "Turan"ı saxlaya bilməyəcək? Klubunuzu yaradın, qardaşlar. Məmnuniyyətlə klubunuza üzv olaram. "Varını verən utanmaz" deyə köməyimi əsirgəmərəm, təki "Turan" yaşasın!

Əsgər Abdullayev, səni və komandanı ürəkdən təbrik edirəm. Ruhdan düşməyə dəyməz. Müsahibənizdən belə başa düşdüm ki, AFFA-nın bir əli üstünüzdə olub. İnşallah, inanıram ki, AFFA da o əli üstünüzdən çəkməz.

Deyəcəklər son zamanlar futboldan çox yazırsan. Bir Pele Braziliyanı dünyaya tanıtdı, bir Maradona Argentinanı. İndi bir Messi Argentinanı, bir Ronaldo Portuqaliyanı, bir Fateh Terim Türkiyəni dünyaya tanıtdı. Fil dişi adında ölkə tanıyırdız?! Amma bir Droqba onu dünyaya tanıtdı.

Futbol həm də sülh oyunudu, barış oyunudu.

Şair Şahmar Əkbərzadə Pele haqqında necə deyir:

**Həsəd aparırdı ağıllı başlar,**
**Ağlı topuğunda olan oğlana.**

Mən də istəyirəm ölkəmiz bütün sahələrdə inkişaf etdiyi kimi, futbolda da inkişaf eləsin. Əgər olimpiya oyunlarında qızıl medallar qazana biliriksə, futbolda niyə qazanmayaq?

"Turan"a uğurlar. Özü də komandanın adına bax ey, TURAN!

**Bir kimsəyə əyilməz turanlılarız,**
**Canımızla, kanımızla düşməni yıkarız!**
**Mərkəzi-xakə atsalar da bizi,**
**Kürreyi-ərzi partladar, çıkarız!**

# Araz Əlizadəni "qəhrəman" edən gücü...

## Azad İsazadə: "Söhbət təkcə "kim nə deyir"də deyil, kim o sözdən necə istifadə edir, bundan çox şey asılıdır"

**Azərbaycan Sosial-Demokrat Partiyasının sədri, deputat Araz Əlizadənin facebookdan istifadə edən milyonlarla azərbaycanlını avara, işsiz-gücsüz adlandırması son günlərdə ən çox müzakirə olunan mövzulardan biri oldu. Halbuki hazırda ölkəmizdə istər siyasi, istərsə də iqtisadi sahələrdə cəmiyyəti narahat edəcək digər ciddi məsələlər var. Həmçinin Araz Əlizadə cəmiyyətdə əsasən mənfi bir şəxs kimi qəbul olunur. Amma onun istər bu, istərsə də daha əvvəllər millət, dövlətlə bağlı neqativ fikirləri cəmiyyətdə ciddi rezonans doğurub.**



Bir faktı da qeyd edək ki, onun politoloq olan qardaşı Zərdüşt Əlizadə də açıqlamaları ilə tez-tez gündəmə gələn tanınmışlardandır. Sanki cəmiyyətin hər iki qardaşa qarşı qəribə bir münasibəti var. Kifayət qədər ciddi adamlar sanballı açıqlamalar verir, ciddi mövzulara toxunurlar, amma onlara Əlizadə qardaşları qədər reaksiya olmur. Mənfi obraz olmalarına rəğmən onlara bu cür reaksiyanın səbəbi nədir?

**Psixoloq Azad İsazadə hesab edir ki, bu hallar təkcə Azərbaycan cəmiyyətinə şamil oluna bilməz:** "Araz Əlizadənin nə dediyini oxumamışam. Konkret onun barəsində danışmaq istəməzdim. Amma ümumiyyətlə, burada söhbət Azərbaycan cəmiyyətindən getmir. Hər bir cəmiyyətdə kütlə psixologiyası var və burada fərqlər mövcuddur. Bu psixologiyada bəzən vacib olmayan məsələ fərd üçün daha vacib görünə bilər, yaxud da tərsi ola bilər. Bunu biz bütün cəmiyyətlərdə görürük. ABŞ cəmiyyətini nümunə gətirək. Cəmiyyət tərəfindən heç də yüksək faizlə qəbul olunmayan Donald Trampın şəxsində seçkiqabağı cəmiyyətə heç də xoş olmayan çıxışlar var idi. Amma cəmiyyət onu özünə prezident seçdi. Deməli, belə bir liderə tələbat var imiş. Onu nə tənqid edirəm, nə də tərifləyirəm. Sadəcə, obyektiv bir fakt kimi göstərirəm. Cəmiyyətin bir tərəfi onun çıxışlarına etiraz etdi, amma digər tərəfdən bu qəbul olundu. Bu hallar bütün cəmiyyətlərdə var. Bu məsələlərdə Azərbaycan cəmiyyəti o biri cəmiyyətlərdən fərqlənmir.

Cəmiyyət yeni ideyalara, yeni fikirlərə - istər mənfi, istər müsbət - daha çox maraqlıdır. Bu zaman adekvat olaraq müsbət və mənfi mənada reaksiyalar olur, amma əsası olur".

**Psixoloq cəmiyyətlərdə mövzu qıtlığının bu cür hallar yaratdığını da istisna etmir:** "Cəmiyyət çox vaxt populist çıxışlara, fikirlərə önəm verə bilər. Bəzən insan xarizmalı olanda ona daha çox inanırlar, onun dedikləri daha çox diqqətdə olur. Mənfi insan kimi XX əsrdə dünya tarixində Adolf Hitleri göstərə bilərik. Ona kimisə bənzədəndə tənqid kimi qəbul olunur. Amma yaddan çıxarmaq olmur ki, 30-40-cı illərdə alman xalqı ona inanırdı, mitinqlərinə çıxırdı. Deməli, o vaxt cəmiyyətə belə bir lider lazım imiş. Sonralar onun nə qədər mənfi cəhətlərinin olduğu göründü. Söhbət təkcə "kim nə deyir"də deyil, kim o sözdən necə istifadə edir, bundan çox şey asılıdır. Yəni o necə danışır, kütləyə fikirlərini necə çatdırır. Psixologiyada "bədən dili" anlayışı var. Biz kimləsə danışanda sözlərimizin 20-30%-i qəbul edilir. Amma 60% "bədən dili"ni qəbul edir. Xarizmatik lider bəzən "bədən dili"ndən istifadə edib, kütləni cəlb edə bilər. Müsbət bir nümunə kimi Türkiyə prezidentini misal çəkə bilərik. Çox xarizmatik, qəşəng danışan, kütləni dalınca apara bilən bir liderdir. Deməli, sözdə "nə demişəm" azdır, əsas "necə demək" rol oynayır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017



# Məmur qızının "Love story" klipinin əks-sədası

Xalid KAZIMLI

**Bu ölkədə öz eqo və davranışlarıyla, şövq və intriqalarıyla vəzifəli valideynlərinə problem yaradan övladlar vaxtaşırı gün işığına çıxırlar.**

Amma beləsi olmamışdı. Əvvəlkilərin hamısı kişi cinsindən idi, yüksək mənsəbli atalarının hesabına müxtəlif cür qudurğanlıqlar, harınlıqlar edir, valideynlərinin adlarını hallandırırdılar.

Bu dəfə ictimaiyyətin diqqətinin öz məmur atasının üzərinə yönəldən övlad xanımdır, həm də atası o qədər də yüksək mənsəbli dövlət adamı deyil, şəhər təsərrüfatı sahəsində orta ranqlı bir vəzifə yiyəsidir.

Di gəl, ortadakı görüntülər böyük cah-cəlaldan, hüdudsuz zənginlikdən xəbər verir.

İstər-istəməz adamlarda belə bir qənaət yaranır ki, ortabab bir nazirliyin orta səviyyəli idarəsi qədər olan bir müəssisənin rəhbərində bu cür ayaqlar altına səpilən, adi toya israf edilən bu qədər pul-para varsa, görün, adı çıxmış oliqarxlarda, nazirlərdə nə boyda sərvət var.

Peşəkar mediada, sosial şəbəkədə istifadəçilər tərəfindən təkrar-təkrar paylaşılan "love story" səciyyəli videoklipdəki görüntülər isə gerçəkdən də ərəb şeyxlərinin, Avropanın kral sarayları cəmiyyətlərinin həsəd aparacağı təmtəraqdadır.

Dünya üzərində yüzlərlə milyarder, minlərlə milyonçu var ki, övladlarına toy büsatı quranda təntənəyə, dəbdəbəyə, təmtərağa bu qədər pul xərcləmirlər, bunu israf sayırlar və təvazö çərçivəsini aşmırlar.

Bu hərəkət görməmiş, günortadan sonra görmüş cəmiyyətlərə xas davranışdır.

Qədimlərdə də belə görməmişliklər, şöhrətpərəstlik tutmaları olub. "Filankəs qızına (oğluna) bir toy elədi ki, sorağı yeddi mahala yayıldı", "Filan adam qırx gün, qırx gecə toy vurdurdu", "Bəhmənkəs oğlunun toyunda quş südünəcən, hər şey verdi" kimi ifadələr hələ də dillərdədir.

Bir neçə il öncə övladının toyuna dünya musiqisinin ulduzlarını, Rusiyanın, Türkiyənin ən məşhur müğənnilərini gətirən və bununla toyun dəbdəbəsini daha da artırdığını düşünən, övladının toyunda bahalı maşınlardan ibarət toy karvanı təşkil edən imkanlı adamlar da vardı.

Son illərdə o trend bir az zəifləmiş kimi görünürdü, amma hiss olunur ki, hələ də öz zənginliyini gözlər önünə sərməklə başqalarında həsəd oyatmağa çalışmaq, öz varidatı ilə qürur duymaq mərəzi öləziməyibmiş.

Əlbəttə, maddi zənginliyi aləmə görk eləmək qanunla qadağan deyil, bu daha çox mənəvi-psixoloji kriteriyalarla tənzimlənən məsələdir. İnsanların təvazökarlığı və lovğalığı şəxsi məziyyətləridir.

Ancaq Azərbaycan kimi yazılmış və yazılmamış qayda-qanunların total şəkildə pozulduğu ölkədə bu cür zənginlik nümayişləri başqa kateqoriyaya girir, insanlarda təkcə həsəd və paxıllıq, qürur və qibtə doğurmur, həm də nümayiş olunan sərvətlərin qaynağı haqda şübhələr doğurur.

İnsanlar haqlı olaraq düşünürlər ki, aylıq məvacibi 500 (lap olsun, 1500) civarında olan bir dövlət məmurunun bir milyonluq villada yaşaması, 100-200 minlik maşınlardan ibarət qaraj saxlaması, ildə bir neçə dəfə 10-15 minlik səyahətlərə çıxması hansı pullarla başa gəlir.

Hamının ağlına ilk növbədə dövlət və xalq malının külli miqdarda oğurlanması versiyası gəlir və onlar yüzdə doxsan doqquz halda düz fikirləşirlər.

Bu ölkədə heç bir məmurun maaşı villa tikdirməyə, "Mercedes Galendevagen" almağa yetəcək qədər çox deyil. Bundan ötrü onlara ya ABŞ-da, İngiltərədə ölmüş xalalarından milyonluq miras qalmalıdır, ya da korrupsiya və rüşvətxorluq qazanında öz çömçələri olmalıdır.

Məmləkət əhli belə varidatların qaynağını, toplanma mexanizmini əla bilir. Heç kimi aldatmaq mümkün deyil. Hər kəs bilir ki, dövlət büdcəsindən gələn sızqa krant belə idarə və müəssisə rəhbərlərinə milyonlar qazandırır. Elələri var, acgöz və tamahkardırlar, əllərinə düşən imkandan maksimum istifadə edir, çox sürətlə varlanırlar. Elələri də var, xımır-xımır yeməyi və dalda-bucaqda gizlənməyi üstün tutur, adının hallanmasını istəmir.

Bu dəfə isə ikinci evliliyinə dair görüntülərin bütün ölkəyə yayılmasını istəyən xanım ölkədə çox az adamın tanıdığı atasını dilə-dişə saldı. İndi o kişinin əmək fəaliyyəti ilə maraqlananlar mütləq olacaq.

Ali mənsəblilərə baxmayın, belə məsələlərdə orta ranqlıların başı ağrıyır.

# İqtisadiyyatın önünü kəsən "əjdaha": monopoliya

## Rəşad Həsənov: "İnhisarçılıq aradan qalxmayınca, islahatların effektivliyi zəif olacaq"

**Ölkə başçısının rəhbərliyi altında aprelin 17-də Yevlaxda keçirilən müşavirə iqtisadi məsələlərin müzakirəsinə yönəldi. Prezidentin çıxışında yer alan strateji istiqamətlər pozitiv əhval-ruhiyyə yaratdı. Xüsusən də Azərbaycanın ixrac potensialının, dünya bazarında xüsusi əhəmiyyət daşıyan məhsulların istehsalının artırılması ilə bağlı tövsiyələr iqtisadçılar tərəfindən yüksək qiymətləndirildi.**



Dövlət başçısı qeyd etdi ki, Azərbaycan iqtisadiyyatında "Made in Azerbaijan" brendini dünyada tanıtdırmaq üçün praktiki addımlar atılır. Lakin bütün bu addımlarının önünü kəsən və islahatların effektini azaldan ən önəmli amil, uzun illərdir Azərbaycan iqtisadiyyatının bəlasına çevrilən monopoliya faktorudur.

"Yeni Müsavat"a açıqlamasında durumu şərh edən iqtisadçı ekspert Rəşad Həsənovun sözlərinə görə, hakimiyyətdə təmsil olunan bəzi oliqarxlar hazırda gedən islahatlardan o qədər də məmnun deyil: "2014-cü ilə qədər Azərbaycanda hökumət tərəfindən iqtisadi proseslərə yanaşma fərqli idi. 2014-cü ildən sonra situasiya tam olaraq dəyişdi. Faktiki olaraq böyük neft gəlirlərindən məhrum olan hökumət digər istiqamətlərdə müəyyən addımların atılması, iqtisadiyyatın şaxələndirilməsi kimi proseslərin zərurətə çevrildiyini qəbul etmək məcburiyyətində qaldı. Mən hesab edirəm ki, bu gün belə oliqarxlar, hakimiyyətdə təmsil olunan müəyyən qruplar liberal iqtisadi mühitdən, hazırkı situasiyada həyata keçirilən islahat proseslərindən məmnun deyillər".

**İqtisadçının sözlərinə görə, xüsusilə də devalvasiyalar ən sərt şəkildə iqtisadi zəifliyin iç üzünü ortaya qoydu:** "Manat tamamilə neftdən asılı olan bir valyutadır və əgər Azərbaycanda neft hasilatı azalırsa, bu, ölkəyə daxil olan valyutanın həcmində kəskin azalmaya, son nəticədə isə tədiyyə bazarında defisitə gətirib çıxarır. Hökumət artıq qəbul edir ki, manatın məzənnəsini qorumaq üçün alternativ yollardan biri də qeyri-neft məhsulların ixracının təmin edilməsidir. Yerli istehlakın müəyyən qədər yerli istehsal hesabına təmin edilməsi, turizm kimi valyuta gətirən sektorların inkişaf etdirilməsindən keçir. Hökumət bütövlükdə bununla razıdır. Amma əminəm ki, bu gün belə hökumətin tərkibində bu proseslərdən məmnun olmayan güclər var. Bütövlükdə prosesi sabotaj etmək, öz maraqlarını axıra qədər qoruyub saxlamaq istiqamətində addımlar atırlar. Məhz bu səbəbdəndir ki, ölkə qanunlarla, strategiyalarla, dövlət proqramları ilə qəbul edilmiş hədəflərə nail olmaqda çətinliklə üzləşir. Bəzən bu çətinliklər heç də nəzərdə tutulan müsbət sonluqla nəticələnmir. Onu da qeyd etmək lazımdır ki, iqtisadiyyatın şaxələnməsindən söhbət gedirsə, liberal iqtisadi mühitin formalaşması vacibdir. Liberal iqtisadi mühit formalaşmayınca və inhisarçılıq meylləri neytrallaşdırılmayınca, Azərbaycanda həyata keçirilən islahatların nəticələri istənilən səviyyədə olmayacaq. Bu kimi amillər nəzərə alınarsa, Azərbaycan iqtisadiyyatının monopoliyadan ən qısa müddətdə xilas edilməsi istiqamətində çox ciddi plan hazırlanmalıdır".

**Rəşad Həsənov hesab edir ki, oliqarxlar və monopolistlər iqtisadiyyatdan kənarlaşdırılarsa, o zaman kapital çatışmazlığı kimi bir problem ortaya çıxacaq:** "Lakin burada da bəzi problemlər yaranacaq. Çünki ötən illər ərzində Azərbaycan iqtisadiyyatı daha çox oliqarx iqtisadiyyatı olub. Belə olan halda da ilkin kapital daha çox oliqarxların əlində cəmləşib. Hazırda digər sahələrdə təşəbbüslərin dəstəklənməsi istiqamətində ciddi ilkin kapital çatışmazlığı ortaya çıxır. Bank sektorunda da vəziyyət məlumdur. Bu halda Azərbaycan haradasa oliqarxların iqtisadi fəaliyyətinə göz yummaq məcburiyyətindədir. Əgər bununla bağlı siyasi iradə ortaya qoyulsa, belə bu proses yumşaq şəkildə həyata keçirilməlidir. Birmənalı şəkildə biz oliqarxları və ya monopolistləri iqtisadiyyatdan kənarlaşdıra bilmərik. Çünki bu gün vəsait onlardadır. Onlar obyekt tikə bilər, istehsal müəssisəsi aça bilərlər. Onlar iqtisadiyyatın ayrı-ayrı sahələrinə yatırımlar edə bilərlər. Çünki əhalinin digər hissəsində belə vəsaitlər yoxdur. Kiçik və orta sahibkarlıq inkişaf etməyib. Bu mənada Azərbaycanda əhalinin digər qruplarında vəsait yoxdur".

**R. Həsənov onu da vurğuladı ki, hökumət monopolistləri neytrallaşdırmaq məqsədilə xarici investisiyanın iqtisadiyyata axınını sürətləndirməlidir:** "Əgər bizim məqsədimiz bu istiqamətdə nailiyyət əldə etməkdirsə, ölkənin reputasiyası məsələsində çox ciddi düşünməliyik. Xarici investorlar hər hansı ölkəyə yatırım edirsə, ilk ortaya çıxan suallardan biri iqtisadi mühitdir. İqtisadi mühit liberal deyilsə, hüququn aliliyi təmin olunmursa, məhkəmələr azad deyilsə və ədalətsiz qərarların sayı minlərlədirsə, belə bir mühitdə xarici investor ölkəyə vəsait qoymağa çəkinəcək. Biz bu gün daxili investorları da inandıra bilmirik ki, siz vəsaitlərinizi ayrı-ayrı sahələrə yatırın. İqtisadiyyatın mahiyyətinin dəyişdiyinə investoru inandırmaq çətinləşib. Bu problemlər aradan qaldırılarsa, qəbul olunan strategiyalarda nəzərdə tutulan hədəflərin vaxtında yerinə yetirilməsi təmin edilərsə, qısa müddətdə deyil, orta və uzunmüddətli dövrdə Azərbaycan iqtisadiyyatını resurs lənətindən müəyyən qədər təmizləmək olar. Eyni zamanda Azərbaycanda dünya iqtisadiyyatının əsasını təşkil edən kiçik və orta sahibkarlığın inkişafına nail olmaq olar. Kiçik və orta sahibkarlığın Azərbaycan iqtisadiyyatında payı cəmi 3 faizdir, məşğulluqda payı cəmi 7 faizdir. Dünyada bu göstəricilər müvafiq olaraq 60-65 faiz, 70-75 faiz səviyyəsindədir. Bu isə o deməkdir ki, bizdə əhali sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa, özəl təşəbbüs göstərməyə meylli deyil, çünki müəyyən maneələrlə üzləşirlər. Bütün bu maneələr aradan qalxmayınca, islahatların effektivliyi zəif olacaq".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017

## Müxalifətçi mühacir Macarıstan səfirliyinə rüşvət verib?

# AXCP-də mühacir skandalı - partiya üzvündən dəhşətli açıqlamalar!

**Tural Hüseynov:** "Qənimət Zahidə yazdım, Eldəniz Quliyevə dedim, Əli Kərimli ilə görüşdüm, ...pulumu"; mühacir jurnalist Fikrət Hüseynli partiya üzvü olan gəncə qarşı dələduzluq edib; işin içində Bakıdakı bir turizm şirkəti də var

**Neçə illərdir ki, Azərbaycandan Avropaya mühacirətə adam yollayan cinayətkar bir şəbəkənin mövcudluğu barədə mətbuatda yazılar dərc olunur, faktlar, dəlillər, zərərçəkmişlər ortaya çıxır. Bu kimi hadisələr daha çox AXCP ətrafında cərəyan edir. Musavat.com-a edilən növbəti şikayət də elə AXCP ilə bağlıdır.**

Belə ki, AXCP üzvü olan gənc - partiyanın Xətai rayon şöbəsinin üzvü Tural Hüseynov (Azərtürk) "mühacirət biznesi" ilə məşğul olan "mafiya"nın toruna düşüb.

**T.Hüseynov başına gələnləri belə nəql edir:** "Mən yaşadığım və haqsızlığa məruz qaldığım bir hadisə ilə bağlı sizlərə məlumat vermək istəyirəm. Yəqin çoxlarınıza məlumdur ki, son zamanlar bir çox vətəndaşlarımız ölkəni tərk edərək Avropaya getmək haqqında düşünür. Sirr deyil ki, bu fikrə düşən insanlar Avropaya getmək üçün sənəd düzəldən işbaz alverçilərlə kontakt yaratmağa çalışırlar...

Bir neçə ay bundan əvvəl mən də belə bir fikrə düşdüm. Ailəmi götürüb Almaniyaya getmək istəyirdim, məni də bu yola sövq edən öz səbəblərim var idi. Sənəd işlərində kömək edəcək etibarlı birini axtarırdım və sonda bu işlərlə məşğul olan biri ilə əlaqə yarada bildim. Düzü, özünü haqq adamı kimi tanıtdığına, həm də Qənimət Zahidin yanında işlədiyinə görə bu adama etibarım var idi. Həm də AXCP-çilərlə sıx əlaqədə olduğundan bu şəxsi normal biri hesab etdim və düşündüm ki, cəbhəçi olduğuma görə məni aldatmaz. Bir neçə ailənin də Avropaya mühacir kimi gedib çıxmasını təşkil etdiyi üçün onun işinə heç bir şübhəm qalmamışdı. Kim fikirləşərdi ki, özünü demokratik düşərgənin mübariz nümayəndəsi kimi təqdim edən bu adam sözün əsl mənasında dələduz, fırıldaqçı imiş. Bu şəxsin adı Fikrət Hüseynlidir. Hollandiyada mühacir həyatı yaşayan, "Turan Tv"nin *(rəhbəri hazırda Fransada yaşayan "Azadlıq" qəzetinin baş redaktoru, AXCP funksioneri Qənimət Zahid-dir-red.)* efirində "Cəbhə Xətti" verilişinin aparıcısı, özünü insan haqları müdafiəçisi kimi tanıdan Fikrət Hüseynli...


Fikrət Hüseynli


Tural Hüseynov

**"Əli Kərimli mənə dedi ki, Fikrəti tanımır və onun bizim partiya ilə heç bir əlaqəsi yoxdur; Qənimət Zahidlə əlaqə saxlayıb Fikrət Hüseynlinin bu cür işlərlə məşğul olduğunu və faktlarla məni aldatdığını bildirdi"**







**"Bu məsələni ictimailəşdirməkdə məqsədim yalnız belə dələduzun əməllərinin ifşa olunması və mənim kimi digərlərinin aldadılmamasna nail olmaqdır"**








Onunla ilk əlaqəmiz skaypla oldu. Məndən bu işin həll olunması üçün 5700 dollar pul istədi. İlk növbədə tapşırdı ki, elə günü sabah pulu avroya çevirim, qardaşı Hüseynov Elxan Nurəli oğlunun adına olan «Unibank» hesabına 2000 avro köçürdüm. Qeyd edim ki, Fikrətin qardaşı da Hollandiyada yaşayır və bu məbləğ bilavasitə Hollandiyaya gedib *(pulun köçürüldüyü haqqında qəbz əlimdədir və surətini sizə təqdim edirəm)*. Mənim işim Bakıda görüldüyü halda bu 2000 avro Hollandiyaya niyə gedirdi? Demək, bu adam o pulu bəri başdan nağd edib öz cibinə qoyur. Sonra mənə Bakıda onun işgörəni olan Mətləb adlı bir şəxs zəng vurdu və özünü turizm firmasının nümayəndəsi kimi təqdim etdi *(sonra öyrəndim ki, bu adam o şirkətdə çalışmır)*. Bu Mətləb adlı şəxs mənə turizm firmasının bank hesabını verdi və mən Fikrətin tapşırığı ilə o hesaba 1135 avro pul köçürdüm. Bu pulun müqabilində firma mənim sənədlərimi viza almaq üçün hazırlayacaqdı, guya qanuni şəkildə. Beləliklə, bu işin görülməsi üçün cəmisi 1135 avro pul lazım imiş, 2000 avronu isə Fikrət heç bir iş görməyi halda mənimsəyirmiş. Çünki Bakıda görülən digər işlərə mən yenidən öz cibimdən pul xərcləmişəm. Sonra Fikrət mənə bildirdi ki, iş yerim haqqında sənədlərim olmalıdır. Mən də o sənədləri topladım, amma Fikrət hansısa arayışın və möhürün çatışmadığını dedi. Fikrət vatsapla mənə səs yazısı göndərərək dedi ki, bu işi sənə 100 manata düzəldə bilərik, belə şeylər praktikada çox olub, birinci dəfə deyil və mənim Mətləbə 100 manat verməyimi istədi. Bir gün sonra isə Fikrətin əlaltısı mənə sənəd verdi, o vaxt heç ağlıma da gəlməzdi ki, onların düzəltdiyi bu sənəd saxtadır. Sonra bütün bu sənədlər, içində Fikrətin əlaltısının düzəltdiyi saxta sənəd də daxil olmaqla, Macarıstan səfirliyinə təqdim olundu. Bir müddət sonra Macarıstan səfirliyi mənə və yoldaşıma viza icazəsi verdi, amma iki körpə övladıma icazə verilmədi. Mən də təbii ki, övladlarımı qoyub xaricə gedə bilməzdim. Fikrətlə əlaqə saxlayıb etirazımı bildirdim. Dedim ki, ya mənim işimi tam gör, ya da mənə yarımçıq iş lazım deyil, pulumu qaytar! O isə dedi ki, bu, xırda məsələdir, konsul bu, icazəni vermək üçün zamin istəyir. Sənə bir nəfər zamin duracaq adam lazımdır, o adamı tap, yenidən konsulun qəbuluna düş. Ona yenidən inandım. Onun dediyi kimi etdim və yenidən viza icazəsi ala bilmədim. Elə hər şey bundan sonra başladı. Fikrət yeni yalanını ortaya atdı; bildirdi ki, yoldaşınla ikiniz gedin bir həftə Avropada gəzin gəlin, iki ay sonra yenə də bu xərcləri çəkərək başqa səfirliyə müraciət edib, gedə bilərsiz. Amma qeyd etdi ki, bunun baş tutacağına da heç bir zəmanət vermir. Təbii ki, axırıncı pulumu bu işlərə xərclədiyimə görə mən bu riskə gedə bilməzdim. Həm də artıq Fikrət o qədər yalan danışmışdı ki, ona inanmırdım. Bu insan başladı məni hər üsulla aldatmağa. Pulumu geri tələb edəndə isə bildirdi ki, mənim sənə verəcək pulum yoxdur. İddia etdi ki, qalan pulu Macarıstan səfirliyinə rüşvət kimi vermişəm. Bunu da araşdırmaq lazımdır. Daha sonra özünü müxalif biri hesab edən Fikrət məni DTX ilə hədələməyə başladı. Düşündüm ki, məni DTX ilə hədələyən biri elə özü DTX agenti olar. Məni gömrükdə mal qaçaqçısı kimi ilişdirəcəyini bildirdi. Əgər məsələni ictimailəşdirsəm, mənim özümün biabır olacağımı, heç kimin mənə inanmayacağını dedi. Almaniyada və Hollandiyada yaşayan qohumlarımla təhdid edərək onların və AXCP adının da hallanacağını dedi. Bildirdi ki, onun arxasında AXCP kütləsi, müxalif dairə var, mənim arxamda isə heç kim yoxdur. Yəni onun dələduz olduğunu ictimailəşdirsəm AXCP də zərbə alacaq. Əlimlə verdiyim halal pulumu bu adam mənə qaytarmaq istəmədi".

**T.Hüseynov deyir ki, Bakıda turizm firmasına müraciət edib, onlara köçürdüyü puldan 1000 avro qaytara bilib:** ""Turizm.az" adlı bir firmadır, ofisi Zivərbəy Əhmədbəyov küçəsində yerləşir. Fikrətin dediyinə görə, bu məbləğin hansısa bir hissəsini o geri qaytarıb, amma heç özü də dəqiq bilmir ki, nə qədərini o qaytarıb, nə qədərini firma. Çünki hər dəfə mənə üst-üstə düşməyən məbləğlər yazırdı. Bu işi həmən ictimailəşdirmək istədim. Lakin üzvü olduğum AXCP və bilavasitə onun sədri Əli Kərimli gəldi gözümün qabağına. Bildim ki, bu insidentdən iqtidar nümayəndələri AXCP-yə və birbaşa Əli bəyə zərbə vurmaq üçün maksimal dərəcədə istifadə edəcək. Eləcə də "Turan Tv"yə. Mən isə üzvü olduğum partiyaya bu ləkənin gəlməsini istəməzdim.


Nəğd ödəniş üçün
QƏBZ № 02671701
VALYUTANIN KODU: EUR 17 Yanvar 2017 il
0402001
DEBET
hesab N AZ73UBAZ00700000110020EUR001
Kimdən: HÜSEYNOV ELXAN NURƏLİ OĞLU
Alanın bankı: UNİBANK KB-nın
Narimanov filialı
Bu hesaba
VÖEN: 1300017201 köçürmək üçün N AZ35UBAZ08220930841020EUR002
2000.00
Rəqəmlə məbləği
Alan: HÜSEYNOV ELXAN NURƏLİ OĞLU VÖEN: 1QQEEZB
iki min AVRO
Yazı ilə məbləği
Ödənişin təyinatı: Nağd pulun (valyuta) plastik karta köçürülməsi, başqa filiala
Mühasib

Qənimət bəyə olan böyük hörmətimdən məsələni birinci ona bildirdim. Amma Fikrət Qənimət bəyi yalan sözləriylə hadisələrin guya belə olmadığına inandırdı. Daha sonra Milli Şura üzvü Eldəniz Quliyevə məsələni bildirdim. Eldəniz bəy bu məsələnin ictimailəşdirilməsinin əleyhinə oldu. Deyirdi ki, yəqin Fikrətin ağlı başına gələr. Amma bu adamın başı ancaq haram və əyri yollarla pul qazanmaq istiqamətində işləyir. Eldəniz bəy Əli bəylə görüşməyimi təklif etdi. Bir neçə gün sonra isə Əli bəylə görüş aldım. İstədim ki, Əli bəy də içimizdə olan dələduzdan xəbərdar olsun. Fikrətin adını çəkən kimi Əli bəy o insan haqqında bundan əvvəl də neqativ sözlər, dolandırıcılıq əməllərini eşitdiyini Eldəniz bəyə bildirmişdi. Mənə isə dedi ki, o insanı tanımır və onun bizim partiya ilə heç bir əlaqəsi yoxdur, amma Fikrətin tutduğu bu pis əməlin bizə də təsiri olacaq, çünki o mənim dostum Qənimət Zahidin yanında işləyir. O, Qənimət bəylə əlaqə saxlayıb Fikrət Hüseynlinin bu cür işlərlə məşğul olduğunu və faktlarla məni aldatdığını bildirdi. Qeyd etdi ki, o insan "Turan TV"dən uzaqlaşdırılmalıdır və mənim halal pulum geri qaytarılmalıdır. Əli bəy "Fikrət partiyanın üzvü olmadığından ona təsir gücüm bu ola bilər", dedi. Əli bəydən ayrıldıqdan bir neçə saat sonra Fikrətdən mənə xəbər gəldi ki, "kimə istəyirsən de, kimi istəyirsən üstümə göndər, mən heç kimi saymıram və heç kimdən də qorxmuram". Belə çıxır ki, Əli bəydən və yanında işlədiyi Qənimət bəydən də. Bildirdi ki, məsələni ictimailəşdirsəm, onun arxasında olan kütlənin əlindən evdən bayıra bir addım ata bilməyəcəm. Bu adam cəbhəçini cəbhə yoldaşlarıyla hədələyir, çox gülüncdür. Elə məsələ də bu yerdə qaldı...

Bütün bu hadisələrdə Fikrətlə olan yazışmalar, dəlil-sübutlar, səs yazıları, bank qəbzləri, aldığım sənədlər hamısı bir fakt kimi əlimdədir. Bu işdə bu faktlara ehtiyac varsa, onları da paylaşa bilərəm. Bütün screenləri, dəlil-sübutları və səs yazılarını açıqlamağa hazıram. Mənim arxamda Allah var və mən haqq olduğuma əminəm. Buna Eldəniz bəylə Əli bəy də şahiddir. Bu məsələni ictimailəşdirməkdə məqsədim yalnız belə dələduzun əməllərinin ifşa olunması və mənim kimi digərlərinin aldadılmamasına nail olmaqdır. Bu tip insanlar bizim aramızda, bilavasitə müxalif dairə içində olmamalıdır. AXCP-nin adından sui-istifadə etməməlidir, bu partiyanın üzvlərinə qarşı inanclarından və etibarlarından istifadə edib dələduzluq etməməlidir. Belə tipajlar bizim adımıza ancaq və ancaq ləkə gətirir.

Fikrət Hüseynli Avropa ölkəsi olan Macarıstanın rəsmi səfirliyinə rüşvət verdiyini iddia edir. Bir neçə nəfərdən eşitdiyimizə görə, o, Avropaya çatdıra bildiyi adamların orada oturum alması üçün Azərbaycan Respublikası Ağır Cinayətlər Məhkəməsinin sənəd və möhürünü saxta şəkildə düzəldir və onlardan istifadə edərək hazırladığı saxta sənədləri lazımi yerlərə təqdim edir. Adını da belə qoyur ki, guya onun bu məhkəmədə tanışları var və onlar da aldıqları pul müqabilində bu sənədləri ona göndərirlər. Maraqlıdır, müxalifəti təmsil edən birinin hökumətlə necə əlaqəsi ola bilər?! Faktiki olaraq belə nəticə hasil olur ki, bu adam Avropanı da saxta sənədlər təqdim etməklə barmağına dolayır".

**Yazıda adları çəkilən hər kəsin mövqeyini dərc etməyə hazırıq. Lakin bəri başdan onu deyək ki, AXCP üzvünün verdiyi bu açıqlama bir cinayət şəbəkəsinin ifşasıdır. Burada dəhşətli iddialar var. Sənəd saxtakarlığından tutmuş, Avropa ölkəsi olan Macarıstan səfirliyinə rüşvət verilməsi, «Turizm.az» adlı şirkətin köməyi ilə beynəlxalq cinayət şəbəkəsinin qurulması da bu iddialar içindədir. Müsavat Partiyasını və onun rəhbərliyini qərəzli şəkildə "saxta mühacirət" işinə cəlb edən istintaq orqanları bu faktları araşdırmalıdır. Dəfələrlə yazdığımız kimi, Azərbaycandan "saxta mühacirət" prosesi tamamilə fərqli ünvandan yönəldilir və bu yazıda həmin ünvana dair ciddi faktlar mövcuddur.**

**❑ M.MAHRIZLI**

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017

# Müxalifət partiyaları nə işlə məşğuldur...

## Əksər təşkilatların başı özünə qarışıb, kimisi qurultaya hazırlaşır, kimisi də daxili təşkilatlanır...

**Adətən yaz-yay aylarında siyasi partiyaların fəaliyyətində müəyyən bir aktivlik hiss olunurdu. Lakin Azərbaycanda artıq bir neçə ildir ki, müxalifət partiyalarının fəaliyyətində mövsümi tərpənişlər müşahidə edilmir.**

Maraqlıdır, hazırda müxalifət partiyaları nə iş görür?

Sorğumuz nəticəsində öyrəndik ki, hazırda partiyaların bir qismi qurultaya hazırlaşırlar.

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev** "Yeni Müsavat"a bildirib ki, hazırda qurultaya hazırlığı yekunlaşdırırlar: "İstisna deyil ki, may ayında partiyanın növbəti qurultayı keçiriləcək. Hazırda bütün işlərimiz həmin qurultayın hazırlığına köklənib. Partiyanın təşkilat komitəsi hər şənbə və bazar günləri toplanıb, cari işləri müzakirə edir. Eyni zamanda partiya olaraq biz iki formatda təmsil olunuruq. Bunlardan biri partiyaların məşvərət heyətidir. Uzun müddətdir ki, bu formatda təmsil olunan partiyalarla hər həftənin birinci günü toplaşırıq. Bu formatda bizim aprel və may aylarına planlaşdırdığımız iki tədbirimiz var. Digər iştirak etdiyimiz format isə Milli Təşəbbüs Qrupu formatıdır. Orada aprel və may ayları üçün nəzərdə tutulan bir sıra tədbirlər planlaşdırılıb".

**Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi İcra Aparatını rəhbəri Samir Əsədli "Yeni Müsavat"a bildirib ki, onlarda da qurultay hazırlıqları davam edir:**

"Təkcə qurultay deyil, eyni zamanda partiyanın 25 illik yubileyinə də hazırlaşırıq. Demək olar ki, kənd rayonlarının konfranslarını keçirmişik, böyük şəhərlər, eyni zamanda Bakı qalıb. Nəzərdə tutmuşuq ki, sentyabr ayına qədər konfransları yekunlaşdıraq. Konfransların keçirilməsi əsasən texniki proseslərə görə yubanır. Yerlər tapmırıq, evlərdə də keçirəndə müdaxilələr olur. Dəfələrlə olub ki, rayon təşkilatlarının konfransını keçirən zaman polis müdaxilə edib. Ali Məclisin, İcra Aparatının, Siyasi Şuranın fəaliyyət planlarına uyğun olaraq da gündəlik fəaliyyətimiz davam edir. Həm rayon təşkilatlarının, həm də digər strukturların toplantıları keçirilir".

**Ümid Partiyasının sədr müavini Tamilla Qulami isə partiya fəaliyyətləri ilə bağlı aşağıdakıları söylədi:** "Partiya olaraq elə bu gün (dünən -red.)də toplantıdaydıq. Ölkədəki ictimai-siyasi prosesləri dəyərləndirdik. Hazırda rayon təşkilatlarının yeni konfranslarının keçirilməsi nəzərdə tutulub, regional müşavirələrə hazırlıq gedir. Digər partiyalarla isə hər hansı bir əməkdaşlıq, yeni layihələr planlaşdırmırıq".

**ADP sədrinin müavini Həsrət Rüstəmov bildirib ki, partiya olaraq cari işlərlə məşğuldurlar:** "Çalışırıq ki, partiyanın bacardığımız qədər təşkilat işləri ilə məşğul olaq. Hər həftə toplantılarımız olur. Biz əslində nizamnaməyə uyğun olaraq qurultay keçirməli idik. Lakin obyektiv səbəblərə görə bu qurultayı təxirə salmışıq. Payızda qurultayımızı keçirməyi planlaşdırırıq və bu istiqamətdə yerli təşkilatlarla iş aparırıq. Xüsusi, nəzərəçarpan hadisə olduğu zaman isə dərhal toplaşıb, buna reaksiya veririk. Çalışırıq ki, respublikanın ictimai həyatında baş verən hadisələrdən kənarda qalmayaq. Hazırda gördüyümüz işlər bundan ibarətdir. Hər həftənin birinci günü partiyanın idarə heyəti, nəzarət-təftiş qrupu toplanır, yerli təşkilatlar da ən azı 3 aydan bir toplantı keçirir. Həmçinin Ali Məclisin də toplantıları il ərzində ən azı 2-3 dəfə keçiririk".

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə söyləyib ki, onlar da daxili təşkilatlanma işləri ilə məşğuldurlar:**

"Eyni zamanda bizim bir sıra siyasi partiyalarla əməkdaşlığımız da mövcuddur və hər həftə onlarla toplantılarımız keçirilir. Ümumilikdə ictimai-siyasi hadisələrə münasibətlər bildirilir. Bu ayın da sonunda eyni ilə tədbir keçirməyi planlaşdırırıq. Hər həftə idarə heyətimizin toplantısı keçirilir. Aprelin 2-də isə partiyanın Ali Məclisinin toplantısı keçirildi. Hər həftə keçirilən toplantılar sayəsində müvafiq hadisələrə reaksiyalarımızı bildiririk".

❑ Əli RAİS



## Milli Şuranın mitinqlərində iştirak edənlər cəzalandırılacaq - ilginc xəbərlər

**Milli Şuranın 9 aprel mitinqində iştirak edənlərin foto və videogörüntüləri əsasında ən kəskin addımlardan ibarət bir cəza paketi hazırlanır. Musavat.com-un məlumatlı qaynaqlardan əldə etdiyi bilgiyə görə, Milli Şuranın 9 aprel tarixli mitinqlərində iştirak edənlərə qarşı təqib və təzyiq prosesinə start verilib. Belə ki, mitinqdə iştirak edən kontingent polis və xüsusi xidmət orqanları tərəfindən video və fotogörüntülərə alınıb. Məlumatlı mənbə deyir ki, hazırda həmin video-fotogörüntülər əsasında xüsusi yaradılmış qrup tərəfindən gərgin iş aparılır. İştirakçıların şəxsiyyəti bir-bir müəyyənləşdirilir və onların hər birinə uyğun olan cəza tədbirləri düzənlənir. Məsələn, tələbələrin universitetdən qovulması, kiçik biznes adamlarının əllərindən bizneslərinin alınması, büdcə təşkilatında çalışanların işdən çıxarılmasına qədər ən kəskin addımlardan ibarət bir cəza paketi hazırlanır. Mənbəmiz iddia edir ki, proses aktiv şəkildə gedir və qısa zaman ərzində nəticələr ictimaiyyətə də bəlli olacaq.**

Bunun hansı məqsədlə edilməsi barədə musavat.com-a xüsusi açıqlama verilməyib. Lakin ehtimal olunur ki, onsuz da az sayda olan müxalifət fəallarının və onlara qoşulan narazı elektorat təmsilçilərinin gözləri qorxudulsun, müxalifətin ictimai dəstəyi, etiraz aksiyaları ilə mövcudluğunu bildirmə imkanları sıfırlansın.

❑ Musavat.com

# Qarabağ qaytarılsa, Azərbaycan Avrasiya İttifaqına qoşula bilərmi...

## Qabil Hüseynli: "Moskva uzunmüddətli təzyiqlərdən sonra əmin oldu ki, Azərbaycan irəli sürdüyü şərtlərdən geri çəkilən deyil"

**Rusiya prezidenti Vladimir Putinin təşəbbüsü ilə yaradılan Avrasiya İqtisadi Birliyinə Azərbaycanın da qoşulması üçün uzun müddət Moskvadan Bakıya təzyiqlər olunduğu müşahidə edildi. Lakin Azərbaycan hakimiyyəti torpaqlarımızı işğal edən Ermənistanın üzv olduğu Avrasiya İqtisadi Birliyinə haqlı olaraq qoşulmadı. Azərbaycanın bu təşkilata qoşulmasının tərəfdarı olan bir sıra şəxslər isə son günlər yenidən belə fikirləri dövriyyəyə buraxıblar ki, Avrasiya Birliyinə üzv olsaq, Rusiya Qarabağ məsələsində sülh sazişi imzalaması üçün Ermənistana təzyiq edə bilər...**



**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Avrasiya İqtisadi Birliyinə üzv olsaq belə, Rusiya Ermənistana işğal etdiyi torpaqlardan çıxması və sülh sazişi imzalaması üçün təzyiq etməz: "Azərbaycan o zaman Avrasiya Birliyi ilə əməkdaşlıq edə bilər ki, Dağlıq Qarabağ problemi həll edilsin. Bunu prezident İlham Əliyev də müxtəlif vaxtlarda açıq və ya dolayısı ilə deyib. Çox az sayda insanları çıxmaqla, Azərbaycan xalqı da bu cür düşünür. Azərbaycan axı niyə Rusiya qarşısında güzəştə getməlidir?! Rusiya Ermənistana torpaqlarımızdan çıxması üçün real təzyiq göstərib buna nail olmadan Azərbaycan niyə onun istəyini yerinə yetirməlidir?! Rusiya Ermənistanın işğal etdiyi torpaqlarımızı geri qaytarmaq üçün bizə köməklik göstərməlidir ki, Azərbaycan da Rusiya ilə vahid məkanda iqtisadi, siyasi əməkdaşlıq bloklarına qoşulsun. Elə-belə amiranə formada demək ki, gəl Avrasiya Birliyinə qoşul, bu, neoimperialist ədasıdır. Bu məsələdə hər iki tərəfdən ciddi kompromislər lazımdır. Yəni Rusiya kompromisə gedərək Ermənistanı işğal edilmiş Azərbaycan torpaqlarından çıxmağa vadar etməlidir. Azərbaycan da bundan sonra kompromisə gedərək Rusiyanın yaratdığı Avrasiya İqtisadi Birliyinə qoşula bilər. Əgər Rusiyadan bu addım olmayacaqsa, Azərbaycanın bəri başdan həmin təşkilata qoşulmasının mənası yoxdur. Heç kim ümid etməsin ki, Azərbaycan o təşkilata qoşulduqdan sonra Rusiya Ermənistana işğal olunmuş torpaqlardan çıxması üçün təzyiq edəcək".

**Politoloq onu da dedi ki, son zamanlar Avrasiya Birliyi məsələsi aktuallığını xeyli dərəcədə itirib və ilk vaxtlarda Moskvadan müşahidə edilən təzyiq indi müşahidə edilmir. Amma bu, o demək deyil ki, məsələ Rusiyanın gündəmindən tamamilə çıxıb:** "Azərbaycanın Rusiyadan asılılıq telləri getdikcə azaldıqca, Rusiyadan təzyiqlər də istər-istəməz azalır. İkincisi, Moskva uzunmüddətli təzyiqlərdən sonra əmin oldu ki, Azərbaycan irəli sürdüyü şərtlərdən geri çəkilən deyil. Anlamağa başladılar ki, Azərbaycanla diktə dilində danışmaq effekt verməyəcək. Üçüncüsü, Azərbaycanın Qərbə doğru meyllənməsi son zamanlar artıb. Avropa Birliyi ilə danışıqlar aparılır, Azərbaycan qazının Avropa bazarına çıxarılması, İpək yolunun açılmaq üzrə olması və digər addımlar Azərbaycanı Qərbə yaxınlaşdırır, Qərblə əlaqələri gücləndirir. Ona görə də indiki şəraitdə Avrasiya Birliyinə görə Azərbaycana təzyiq eləmək o qədər asan deyil".

**Q.Hüseynli vurğuladı ki, Moskva açıq şəkildə olmasa da, dolayısı yollarla Azərbaycana təzyiq edir. Ümumrusiya Azərbaycanlıları Konqresinin qeydiyyatının ləğvi məsələsinin ortaya atılması, bununla eyni vaxtda Moskvada Rusiya Ermənilәri İttifaqının prezidenti Ara Abramyanın 60 illiyinin keçirilməsi, mərasimə Rusiya prezidentinin mətbuat xidmətinin rəhbəri Dmitri Peskovun, xarici işlər naziri Sergey Lavrovun, Vladimir Jirinovskinin qatılması və ermənilərin şəninə təriflər, arzular ifadə edilməsi dolayısı yolla təzyiqdir:** "Bu, dolayısı ilə təzyiqdir, həm də onların iç üzünü açan faktdır. Rusiya artıq öz hərəkətləri ilə əslində öz-özünü ifşa edir. Dünənə qədər küçələrdə ticarətlə məşğul olan bir erməninin yubileyinin keçirilməsi və dövlət səviyyəsində həmin tədbirdə iştirak Rusiyaya o qədər şöhrət qazandırmır. Ara Abramyan nə böyük adamdır ki, onun yubileyinə Rusiya prezidentinin danışan dili sayılan Peskov, xarici işlər naziri Lavrov qatılır. Deməli, onlar bu addımla həm də Azərbaycana təzyiq edirlər, nümayiş etdirirlər ki, Ermənistanın yanındayıq. Azərbaycanın Avrasiya Birliyinə qoşulmasının tərəfdarı kimi çıxış edənlər bu faktı unutmamalıdırlar".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017

# "Reuters"in Azərbaycan əleyhinə məqaləsinə sərt reaksiya

## Bəxtiyar Sadıqov: "“Reuters” yuxusunda gördüyünü həqiqət kimi qəbul edir"

**“Reuters” xəbər agentliyi Azərbaycandakı həbslərlə bağlı yazı dərc edib. Yazıda qeyd olunur ki, neftin ucuzlaşmasından dolayı ötən il Azərbaycanda ərzağın bahalanması əleyhinə etiraz aksiyaları keçirilib, amma təzyiqləri və sovet dönəmini yada salan mülki geyimli polislər etiraz hərəkatını boğub.**

“Reuters” bildirir ki, agentliyin müxbiri Azərbaycanda ötənilki etiraz aksiyalarına qatılmış vətəndaşlarla söhbət etdikdən sonra yazı hazırlayıb.

Yazıda ötən ilin yanvarındakı etirazları polisin su şırnağı, dəyənək və gözyaşardıcı qazla dağıtdığı vurğulanır. “Reuters” yazır ki, etirazların belə sərt dağıdılması Azərbaycanla əməkdaşlıq edən Avropa Birliyi və AB firmalarına potensial problem yaradır.

“Əməkdaşlıqda məqsəd 2020-ci ilədək Azərbaycan qazını Avropa bazarlarına daşıyacaq kəmərlərin çəkilməsidir” - deyə yazıda qeyd olunur.

“AB bu layihəni Avropanın Rusiyadan enerji asılılığını azaltmaqdan ötrü istəyir. Ancaq dinc etirazçıları təqib edən, ona qarşı çıxanları həbsə atdıran hökuməti dəstəkləyən kimi də görünmək istəmir”, - məqalədə deyilir.

“Reuters” müxbiri Quba, Siyəzən və Şabranda etirazçılarla söhbətlərdən belə qənaətə gəlib ki, hökumətin onlarla rəftarı siyasətçiləri narahat etməlidir. Həmin şəxslər kütləvi saxlanmalardan və həbslərdən, dövlət idarələrindəki cəzalardan, polisin daha uzunmüddətli cəzalarla hədələməsindən söz açıblar.

Siyəzəndə Arun adlı tələbə orada 50-dək adamın saxlandığını söyləyib. Onun sözlərinə görə, çoxlarına bir aylıq cəza kəsilib, bəziləri içəridə 6 ay saxlanıb, bəziləri döyülüb.



**Daxili İşlər Nazirliyinin sözçüsü Ehsan Zahidov agentliyə bu cür iddiaların yersiz olduğunu bildirib:** “Saxlananlardan heç bir şikayət almamışıq. Onlarla pis rəftar olunubsa, niyə şikayət etməyiblər? Məhkəməyə də şikayət edə bilərdilər. Bu məlumat doğru deyil”.

“Reuters” yazır ki, həmin etirazlardan sonra Azərbaycan iqtidarı hakimiyyətini möhkəmləndirməyə başlayıb, konstitusiyaya dəyişikliklər edərək, prezidentlik müddətini 5 ildən 7 ilə qaldırıb.

Diplomatik mənbələr baş nazir Artur Rasi-zadənin yerinə ölkə rəhbərliyinə yaxın adamın təyin ediləcəyini deyirlər.

“Reuters” bir daha ötənilki etirazlara qayıdaraq yazır ki, 38 min əhalisi olan Quba şəhərində 30 nəfər bir aylığa saxlanılıb. İndi Qubanın küçələrində əlavə polis qüvvələri gözə dəymir. Ancaq sakinlərin deməsinə görə, əhali arasında ən kiçik mübahisələr belə dərhal polis tərəfindən yatızdırılır və tərəflər cəzalanır.

Agentlik ölkədə bir sovet təcrübəsinin də tətbiq olunduğunu yazır - könüllülər ictimai polisə çevriliblər. Onlar əslində polisə xırda pozuntuların həllində kömək göstərməlidirlər. Di gəl, bəzi sakinlər deyiblər ki, bu şəxslərin işi-gücü polisi hər hansı narazılıq işartısından xəbərdar etməkdir.

Agentlik qanunla həmin şəxslərin uniforma geyinməli olmasına diqqət çəkir. Amma nümayişçilər bu könüllülərin mülki geyimdə gəzdiyini, onları müəyyənləşdirməyin çətin olduğunu vurğulayırlar.

**Agentliyin məqaləsi ölkə iqtidarı tərəfindən etiraz doğurub. YAP-çı deputat, “Azərbaycan” qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov “Yeni Müsavat”a açıqlamasında “Reuters”i qərəzli olmaqda suçladı:** “Azərbaycanda bir məsəl var: ”Həcdən gələn mən, xəbər verən bu". Biz hamımız Azərbaycanda yaşayırıq, ölkədə gedən proseslər gözümüzün qarşısındadır. Ölkəmizdə mətbuat və söz azadlığı elə bir səviyyəyə çatıb ki, heç nəyi gizlətmək mümkün deyil. İnternet resursları, sosial şəbəkələr var. Hələ elektron və çap mediasını demirəm. Azərbaycanın harasında nə baş verirsə, qısa müddətdə bundan xəbər tuturuq. “Reuters” agentliyi bu cür məqalə ilə əslində özünü gülünc vəziyyətə qoyub. Bununla da agentlik ölkəmizə qarşı qərəzini, dünya erməniliyinə xidmət etdiyini göstərib və dünya erməniliyinin əlində alət olduğunu sübut edib. Məqalədə qeyd olunanları oxuyan hər bir azərbaycanlı, sadəcə, buna gülə bilər. Hazırda ölkəmizdə çox uğurlu proseslər gedir. Müəyyən çətinliklər oldu, manatımız devalvasiyaya uğradı, neftin qiyməti aşağı düşdü, lakin Azərbaycan çox çevik siyasət yürütdü. Ölkədə çox ciddi islahatlar aparıldı, qanunvericilikdə dəyişikliklər edildi. İlin birinci rübünün yekunları bir neçə gün əvvəl oldu. Ölkə başçısı Yevlaxda çox möhtəşəm bir müşavirə keçirdi. Orada bütün inkişaf rəqəmləri açıqlandı. Təkcə son bir il ərzində Azərbaycanın valyuta ehtiyatlarının bir milyard artırdığı qeyd olundu. Bu rəqəmlərin özü göstərir ki, Azərbaycan iqtisadiyyatı sağlamdır. Ölkəmiz bütün çətinlikləri artıq geridə qoyub. “Davos” forumu 37-ci yeri ölkəmizə verib, rəqabət qabiliyyətinə görə. Üç pillə irəliləmişik. Bütün bunlar beynəlxalq qurumların ölkəmizdə gedən müsbət dəyişikliklərin etirafıdır. “Reuters” yuxusunda gördüyünü həqiqət kimi qəbul edirsə, o zaman gərək olmayan şeyləri də yuxusunda görməsin. Fransada insanlar nümayişə çıxanda atdöşü edirlər. Sonuncu dəfə Hollandiyada türk miqrantları atların ayaqları altında qoydular, itlər insanları gəmirdi. Avropada insanlara qarşı bu münasibətdən agentlik niyə yazmır? “Öz gözündə tiri görmürsən, başqasının gözündə qıl axtarırsan” məsəli indi onlara aid deyilmi? Miqrantların yerləşdiyi sığınacaqlar Avropada yandırılır. Miqrant yaşadığı yeri heç yandırarmı? Qəsdən törədilir və miqrantların ölkələrdən çıxarılmaları üçün əsas yaradırlar. Azərbaycanın uğurlarını görmürlər, ancaq nöqsan axtarırlar, görməyəndə isə uydururlar. Bu məqalə agentliyin imicini korladı, həqiqətlərdən uzaq bir informasiyalar yayan qurum olduğunu göstərdi. Turistlərin sayı durmadan artır, ölkəmizdə sabitlik olmasaydı, turistlər heç gələrdi? Beynəlxalq idman yarışlarının ölkəmizdə keçirilməsinə razı olardılar? Bütün bu faktlar onların necə qərəzli olduqlarını göstərir. Abırlı, ağıllı, öz imicinə hörmət edən agentlik belə qərəzli rəylər verməz. Əgər bu yol onlara sərf edirsə, davam etsinlər, heç bir xeyir tapmayacaqlar".

❑ Cavanşir ABBASLI

# Azərbaycana "Boeing" satdığına görə ABŞ-ı qınamaq doğrudurmu...

## "Bu təyyarələrin alınıb-alınmamasının demokratik dəyərlərin düşməsinə və ya qalxmasına nə aidiyyəti var?"

**Azərbaycanın “Silk Way Airlines” aviaşirkəti və ABŞ-ın “Boeing” aerokosmik korporasiyası 10 ədəd “Boeing-737 MAX” sərnişin təyyarəsinin alınmasına dair müqavilə imzalayıb. Şirkətin yaydığı xəbərə görə, müqavilə “Silk Way Holding”in prezidenti Zaur Axundov və “Boeing” şirkətinin baş vitse-prezidenti Marti Bentrott tərəfindən Bakıda imzalanıb. İmzalanma mərasimində “AZAL”ın prezidenti Cahangir Əsgərov və ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta iştirak edib. Müqavilənin ümumi məbləği təxminən 1 milyard dollar təşkil edir.**

ABŞ-ın İxrac-İdxal Bankı (Ex-Imbank) ilə ilkin müzakirələr əsasında Azərbaycanın mülki aviasiyası tarixində ilk dəfə olaraq hava gəmilərinin alınmasına dair sazişin maliyyələşdirilməsi dövlət zəmanətləri olmadan həyata keçiriləcək.

İlk iki yeni nəsil təyyarə Azərbaycana 2018-ci ilin sonuna kimi, qalanları isə 2020-ci ilin sonuna kimi gətiriləcək.

“Silk Way Holding”in prezidenti Zaur Axundov jurnalistlərə bildirib ki, bu müqavilənin imzalanması ilə Azərbaycanın mülki aviasiyası öz inkişafının yeni mərhələsinə qədəm qoyur: “Silk Way Airlines” “Boeing” istehsalı olan 10 yeni və müasir təyyarə alacaq. Biz bu təyyarələri əməliyyat və maliyyə lizinqi əsasında digər aviaşirkətlərə verməyi planlaşdırırıq. Bu layihə çox yaxşı perspektivə malikdir".

Səfir Robert Sekuta isə deyib ki, imzalanmış sənəd ABŞ və Azərbaycan arasında çox sıx münasibətlərin göstəricisidir.



Azərbaycanda bəzi müxalifət partiyalarının təmsilçiləri və QHT rəhbərləri isə sözügedən hadisəni ABŞ-ın Azərbaycanda demokratiyanı iqtisadi maraqlara qurban verməsi kimi qiymətləndiriblər. Bu iddiada olanlar sosial şəbəkədə qeydlərində bildiriblər ki, Azərbaycan demokratları ABŞ-dan demokratiyanı prioritetlər sırasında önə keçirməyi, Azərbaycana hakimiyyətinə təzyiq etməyi gözlədiyi halda, ABŞ-ın nəhəng şirkəti Azərbaycanla 1 milyardlıq müqavilə imzalayır.

Bəs bu məsələləri bir-biri ilə qarışdırmaq nə dərəcədə düzgündür? Ümumiyyətlə, ABŞ-ın prioritetləri sırasında Azərbaycanla münasibətlərdə demokratiya nə zamansa iqtisadi maraqlardan öndə olubmu?

**Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev bildirdi ki, Qərb institutlarının, ABŞ-ın zaman-zaman Azərbaycanda insan haqları, demokratiya, seçkilərlə bağlı problemlərin olması bəyanatlarını eşitmişik. Amma bu bəyanatların olması Azərbaycanla siyasi münasibətlərin davam elətdirilməsinə, problemlərin müzakirəsinə maneçilik törətməyib və bu da normaldır. İqtisadi münasibətlərə gəlincə isə hamıya məlumdur ki, Azərbaycanın əsas idxal , ixrac əməliyyatları Qərb və ABŞ şirkətləri ilə aparılır. Hər iki tərəf buradan kifayət qədər qazanc əldə edir. Kimlərsə bundan narahat olursa, yanlışdır:** “O cür iddiaları irəli sürənlər bilməlidirlər ki, hansısa xarici şirkət qanuni qazancından, dövləti isə öz büdcəsi üçün ödəniləcək, xalqına xidmət edəcək milyonlarla vergidən imtina etməz. Həmçinin yeni təyyarələr alınması üçün «Boeing» şirkəti ilə müqavilələr niyə bağlanmamalıdır? Yaxud da həmin şirkət niyə Azərbaycanla müqavilə bağlamamalıdır? Bu təyyarələrin alınıb-alınmamasının demokratik dəyərlərin düşməsinə və ya qalxmasına nə aidiyyəti var? Ümumiyyətlə, o cür yanaşma doğru deyil. Bir dövlətlə iqtisadi münasibətlərin dayandırılması sonun başlanğıcı və ya körpülərin yandırılması deməkdir. Hər hansı iqtisadi sanksiya yoxdursa, müxtəlif kontraktlar da bağlana bilər. Adətən iqtisadi blokada və sanksiyalardan hakimiyyətdə olan qüvvələrdən daha çox xalqa ziyan dəyir. Belə çıxır ki, o cür iddiaları irəli sürənlər xalqın zərər çəkməsinə gətirəcək sanksiyaların olmasını istəyir”.

**Ekspert vurğuladı ki, əgər ABŞ hansısa dövlətin siyasəti ilə razılaşmırsa, onu tənqid edirsə, siyasi münasibətləri, danışıqları kəsməməyə üstünlük verir. İqtisadi münasibətləri isə bacardıqca siyasi münasibətlərə qatmamağa çalışırlar:** “Bu siyasəti müxtəlif cür adlandıra bilərlər. O cümlədən demokratiyanı iqtisadiyyata qurban vermə kimi və sair. Amma ABŞ bu yanaşmanı qəbul etmir. ABŞ-ın hətta iqtisadi sanksiya tətbiq etdiyi dövlətlərə baxsaq, bu sanksiyaların çoxunun səbəblərinin demokratiya ilə bağlı olmadığını görərik. Məsələn, Şimali Koreya, İran nüvə təhdidinə görə, Rusiya Krımın anneksiyasına görə iqtisadi sanksiyalara məruz qalıb. Demokratiya ilə bağlı isə daha çox siyasi sanksiyalar tətbiq olunur”.

❑ Etibar SEYİDAĞA



# Zorxana və kitabxana

Zamin HACI
zaminhaci@gmail.com

**İki gün qabaq bir saytda olduqca səsləşən xəbərləri yanaşı qoymuşdular. İstəsən, bunu təsadüf də saymaq olar, hərçənd mən təsadüflərə inanmıram. Nə əkərsən, onu da biçərsən.**

Xəbərin biri ölkəmizin baş kitabxanası - Mirzə Fətəli Axundov adına Milli Kitabxana haqda idi. Yazmışdılar ki, iqtisadi çətinliyə, dövlət büdcəsində yaranan problemlərə görə kitabxanada 5 şöbə ləğv olunacaq, yerində 3 şöbə düzəldiləcək. Nəticədə bir çox işçilər öz hesabına məzuniyyətə göndəriləcəkdir. İndi bizdə işdən çıxartmağın adını təmtəraqlı olsun deyə bu cür qoyurlar.

Sözgəlişi, belə leksikonun ölkəmizdə xeyli xəstəsi vardır. Bir dəfə mən kiminsə ölməsi haqda elə "adam öldü" tipində cümlə işlətmişdim, onun ağıldan qıvraq qohum-əqrəbası üstümə gəlmişdi, deyirdilər "öldü" yazmaq mərhumun ruhuna qarşı təhqirdir. Gərək "vəfat etdi", ya da ən pis halda "dünyasını dəyişdi" yazaydım. (Bu dünyanı dəyişməyin mümkünlüyünə əminliklə inananların beynindən 150 qram istəyirəm). Bir dəstə dövlət təhsil obyektində isə uşaqların beynini zəhərləyirlər, onlara deyirlər ki, guya öz ana dilimizin "hə" sözü fars dilindən keçmə "bəli" sözündən kobud imiş. Nəsə, bu uzun söhbətdir, nə qədər ölməmişik, başqa vaxt qayıdarıq.

Həmin kitabxana işçilərinin ixtisarı xəbərinin altında isə İslam Oyunlarına hazırlığımızın durumundan yazılmışdı. Yadımdan çıxmamış, bir əlavəmi də edim: məncə, Axundov kitabxanasının işçiləri işsiz qalmayacaqdır. Dövlət onları pambıq əkməyə, tütün becərməyə, dəmir filizi çıxartmağa, canım sənə desin, fındıq yığmağa göndərəcəkdir. İndi bizdə iqtisadiyyatın, həyatın prioritet (birinci, qabaqda gedən deməkdir) sahəsi bunlardır.

İslam Oyunlarına hazırlığımızın yüksək səviyyədə olması və kitabxanada ixtisarlar, məncə, Azərbaycanın indiki vəziyyətini bu, çox dəqiq izah edir. Elm öyrənmək, təhsilə maya qoymaq, yüksək texnologiyalı sahələri inkişaf etdirmək əvəzinə bizim pullarımızı cürbəcür mənasız turnirlərin təşkilinə sərf edirlər. Əslində bəlkə də dinin özünün bizdə oyunlar şəklində dövlət dəstəyi görməsi bir növ ironiyadır. Biz Allah-təalaya giriş qapısını da mayallaq aşa-aşa açmaq fikrindəyik. Bəlkə bu daha düzgün yoldur, nə biləsən... Qoy dünya xalqları "islam" deyəndə belinə bomba bağlamış radikal tipləri təsəvvür eləsin, biz isə incəbelli gimnast qızları. Məncə bizim yolumuz mütərəqqi yoldur. Dünyaya yenə də, həmişəki kimi Azərbaycan modelini nümayiş etdiririk.

Ümumiyyətlə, bizim dünyaya çıxışımız həmişə orijinal olubdur. Misal üçün, hamı məntiqlə çıxanda, biz Lütfi Zadə adlı alimi göndərib qeyri-səlis məntiqlə çıxmışıq. Yaxud təzəlikcə balaca oğlum Youtube kanalında kosmosa aid hansısa sənədli filmə baxanda, gəlib mənə deyir: "Ata, burda bir bakılıdan da danışırlar". Təəccübləndim, çünki kosmosa dəxli olan bakılıların sayı, məncə, çox az olmalıdı. Baxıram, sən demə, Zaxariya Sitçin adında bir nəfər varmış, 1920-ci ildə Bakıda doğulub, sonra Fələstinə köçüb, bu, şumerlər, Nibiru mistik planeti, başqa planetdən gələnlər haqda "gopologiya"dan ibarət 12 cild kitab yazıbdır. Dünyada məşhur yalançı alim bizdən çıxmasa heyrət edərdim.

Elə daimi oxucularımızdan Vasif Həsənovun məktubu da İslam Oyunları haqdadır: "Ölkəmizdə keçirilməsi planlaşdırılan İslam Həmrəyliyi Oyunlarına lap az qaldı. Öz-özümə sual verdim: bu şairanə səslənən islamiada nədir axı? İnternetdə axtarış edəndə məlum oldu sayca 4-cü olacaq turnirdə 21 idman növü üzrə 57 dövlətin 6000-ə yaxın idmançısı iştirak edəcək. Həmin 21 növdə atletika, gimnastika, boks və sairəni sadalamaq olar. Ancaq onların arasında bir idman növü xüsusi diqqət çəkdi: zorxana. Doğrudan da indiki dövrdə İslam ölkələri arasındakı münasibətləri həmrəylik yox, elə zor, zorxana sözü ilə ifadə eləmək daha yerinə düşər. Əslində bu tip turnirlərdə idmançı və atletləri molla və din xadimləri əvəz etməlidir. Orada bədii gimnastika, çimərlik boleybolu kimi haram idman növləri deyil, başqa formatda olan yarışlar keçirilməlidir. Məsələn, kimin əmmaməsi daha böyükdür, kimin saqqalı daha uzundur, kim azanı daha avazla oxudu, hansının duası daha çox cin-şeytan ürküdər və sairə. Bura siğə etməyi, baş kəsməyi, edam fətvası verməyi-filanı da əlavə etmək olar".

**Azərbaycanda yeni lisenziyalaşdırılan fəaliyyət növü - valyuta mübadiləsi fəaliyyətinin yaradılması məqsədilə "Valyuta tənzimi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanıb. Bu fəaliyyət növü Azərbaycanda xarici valyutanın qanunla müəyyən edilmiş qaydada alınması, satılması və dəyişdirilməsini nəzərdə tutur və lisenziyalaşdırılan fəaliyyət növüdür.**



# "Exchange"lər bərpa olunur - bu dəfə MBNP-nin nəzarətində...

## Milli Məclisə yeni qanun layihəsi təqdim edilib; **Vahid Əhmədov:** "VDM-lərin yenidən fəaliyyətə başlaması manatın məzənnəsinə o qədər də ciddi təsir göstərməyəcək"; "Bu məsələ ilə bağlı mənim hazırda açıqlamadığım müəyyən nüanslar da var ki, biz onun üzərində işləyəcəyik"

Dəyişikliklər valyuta mübadiləsi fəaliyyətinin həyata keçirilməsini tənzimləyir.

Valyuta mübadiləsi fəaliyyətinin həyata keçirilməsinin ümumi əsaslarına görə, rezidentlər və qeyri-rezidentlər Azərbaycanın daxili valyuta bazarında qanunla müəyyən edilmiş qaydada xarici valyutanı satmaq, almaq və dəyişdirmək hüququna malikdir.

Dəyişikliyə əsasən, Azərbaycanda valyuta mübadiləsi fəaliyyətini həyata keçirmək hüququna yalnız maliyyə bazarlarına nəzarət orqanından "Banklar haqqında" Qanuna əsasən lisenziya almış yerli banklar, xarici bankların yerli filialları, "Poçt haqqında" Qanuna əsasən lisenziya almış poçt rabitəsinin milli operatoru və bu qanunla müəyyən edilmiş qaydada lisenziya almış rezident hüquqi şəxs və fiziki şəxslər, qeyri-rezident hüquqi şəxslərin filialları (valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər) malik olacaq.

Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən xarici valyutanın alqı-satqısı yalnız nağd qaydada və müştərilərin sifarişi ilə həyata keçiriləcək.

Bu isə iki il öncə ləğv olunan valyutadəyişmə məntəqələrinin yenidən bərpa olunması deməkdir. Bəs görəsən, bir zamanlar manatın məzənnəsi üçün təzyiq formalaşdıran bu qurumları ləğv edən hökumət indi onları niyə yenidən bazara qaytarır? VDM-lərin bərpası manatın məzənnəsinə, hökumətin monetar siyasətinə, maliyyə bazarlarındakı duruma necə təsir göstərəcək?

**"Yeni Müsavat"ın bu sualını cavablandıran Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov qanunun hələ qəbul olunmadığını bildirdi:** "Bu qanun layihəsi hələ qəbul olunmayıb. "Valyuta tənzimlənməsi haqqında" Qanuna dəyişiklik layihəsidir. Bu qanun layihəsi əslində "exchange"lərin təşkili ilə əlaqədar prosesin tənzimlənməsini nəzərdə tutur; bu obyektlər necə təşkil olunmalıdır, lisenziyalar necə verilməlidir və sair digər məsələlər. Bu qanun layihəsində mübahisəli məsələlər də var. Biz onun üzərində müzakirə aparmalıyıq. Müzakirənin nəticələri bəlli olduqdan sonra bu qanun layihəsi haqqında da konkret söz demək olar.

Ümumiyyətlə, bütün dünyada "exchange"lər bankların nəzarətindədirlər. Bankların tərkibində fəaliyyət göstərirlər. İstər qonşu Türkiyədə, istər Avropa ölkələrində bu qurumlar bankların tərkibindədirlər. Devalvasiya dövründə "exchange"lər maliyyə bazarı üçün problem yaratdığından onları bağladılar. İndi bu qanun layihəsinin qəbul olunmasında məqsəd onları yenidən bərpa etməkdir. Əvvəllər bu məsələlərə Mərkəzi Bank baxırdısa, indi Maliyyə Bazarlarına Nəzarət Palatası baxır. Palata istəyir ki, "exchange"ləri yenidən yaratsın. Bununla bağlı elə bir ciddi problem və manea yoxdur. Ancaq mənim hazırda açıqlamadığım müəyyən məsələlər də var ki, biz onun üzərində işləyəcəyik. Aprelin 20-də Milli Məclisdə o məsələlər müzakirə olunacaq. Ümumi götürdükdə, "exchange"lərin açılması normal bir prosesdir. Ancaq görək onları hansı şərtlər daxilində açacaqlar. O şərtlər bizi çox maraqlandırır".

**Deputatın sözlərinə görə, VDM-lərin yenidən fəaliyyətə başlaması manatın məzənnəsinə o qədər də ciddi təsir göstərməyəcək:** "Mən bunun manatın məzənnəsinə ciddi təsirinin olacağını gözləmirəm. Çünki "exchange"lər faktiki olaraq Maliyyə Bazarlarına Nəzarət Palatasının nəzarəti altında olacaqlar. Orada alış-veriş prosesinin hesabatı aparılacaq. Bu proses tam sərbəst olmayacaq".

**V.Əhmədov onu da bildirdi ki, beynəlxalq idman yarışları və turizm mövsümünün başlaması ərəfəsində turistlərin valyuta dəyişməklə bağlı işini asanlaşdırmaq baxımından "exchange"lərin açılması çox önəmlidir:** "Turistlərin rahatlığı baxımından bu çox önəmlidir. Çünki hər yerdə banklar və bank filialları yoxdur. Turistlər bu məsələdə əziyyət çəkirdilər. Qarşıdan İslam Oyunları və Formula 1 yarışları gəlir. Ona görə də Azərbaycana turist axını çoxalıb. Bu məsələ olduqca əhəmiyyətlidir. Turistlər istənilən yerdə valyutadəyişmə imkanına malik olacaqlar".




❑ **Nərgiz LİFTİYEVA**

## Azərbaycan Silahlı Qüvvələrinin təlimlərinin növbəti mərhələsi keçirildi

**Azərbaycan Silahlı Qüvvələrinin təlimlərinin növbəti mərhələsində qoşunlar yerləşdikləri rayonlardan açılma həddinə çıxmaq üzrə tapşırıqları yerinə yetiriblər.**



Musavat.com-un Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, artilleriya, hava hücumundan müdafiə vasitələri, aviasiya və xüsusi növ qoşunların digər bölmələri tapşırıqları təlimin şərtlərinə uyğun yerinə yetiriblər.

Qeyd olunub ki, təlimlərin bu mərhələsinin əsas xüsusiyyəti qoşunların qaranlıq vaxtı hərəkətinin təşkili və həyata keçirilməsidir ki, bu da işığı maskalama (gizlətmə) üzrə əlavə tədbirlərin görülməsini tələb edir.

Təlimlərdə əsas diqqət həmçinin tapşırıqların dəqiq və vaxtında icra edilməsi məqsədilə qoşunların hərtərəfli təminatına, komendant və mühəndis xidmətlərinin fəaliyyətinə yönəldilib.

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017

**Azərbaycan ordusunun aprelin 16-da başlayan növbəti, 5 günlük genişmiqyaslı hərbi təlimləri davam edir. Xəbər verildiyi kimi, on minlərlə hərbçinin qatıldığı təlimlərə yüzlərlə zirehli texnika və aviasiya sistemi, artilleriya qurğuları, digər döyüş sistemləri, habelə Azərbaycanın aldığı və ya özünün istehsal etdiyi yeni silahlar, o sırada pilotsuz uçan aparatlar, kamikadze-dronlar cəlb edilib.**



# Rusiya Azərbaycanın hərbi təlimlərinə Ermənistandan və Xəzərdən cavab verdi

## Silahlı Qüvvələrimizin manevrləri fonunda Kreml də işğalçı ölkənin döyüş qabiliyyətini yoxlamaq qərarı verdi; Rusiyanın Xəzər donanması Azərbaycanla sərhəddə artilleriya təlimlərinə başladı; təlimlərə qarşı təlimlərin pərdəarxasında nələr var?

Gözlənildiyi kimi, Azərbaycan Silahlı Qüvvələrinin budəfəki təlimləri də düşmən tərəfdə rahatsızlıq yaradıb. Ancaq belə görünür ki, Ermənistanın 1 nömrəli müttəfiqi Rusiya da bununla bağlı qayğılanıb və öz satellitinin təlaşını azaltmaq və onu sakitləşdirmək üçün hərəkətə keçib. Belə ki, ordumuzun təlimlərinin davam etdiyi vaxtda Rusiya da Ermənistanda təlimlərə başlayıb.

Məlumatlara görə, Rusiya Cənub Hərbi Dairəsinin (CHD) döyüş aviasiyası və hava hücumundan müdafiə bölmələri Ermənistanda döyüş hazırlığı səviyyəsinin yoxlanılması məqsədilə təlimlərə start verib (APA). Bu barədə CHD mətbuat xidmətinin rəisi polkovnik Vadim Astafyev bildirib. Hərbçilər həmçinin "Kamhud" və "Alagöz" dağ poliqonlarında zenit-raket kompleksləri qarşılıqlı uzlaşma şəraitində hava hədəflərinin vurulması və müşayiət edilməsi kimi müxtəlif döyüş tapşırıqlarını praktiki şəkildə icra edəcəklər. Təlimlərə 500-dək hərbçi, 100-dən çox xüsusi hərbi texnika, o cümlədən, "Buk-M1-2", "S-300B" zenit-raket kompleksləri, Rusiyanın Ermənistandakı "Erebuni" aviabazasından "MİQ-29" qırıcı təyyarələri, "Mi-24P" və "Mi-8MT" helikopterləri cəlb olunub.

Maraqlıdır ki, eyni vaxtda Rusiyanın Xəzər donanması Azərbaycanla sərhəddə artilleriya təlimlərinə başlayıb. APA-nın "RİA Novosti"yə istinadən verdiyi məlumata görə, Cənub Hərbi Dairəsinin Xəzər donanmasının dəniz piyadalarının artilleriya bölmələri Dağıstanın Adanak poliqonu və Skorpion taktiki meydanında döyüş atəşinin tətbiqi ilə batareya təlimləri keçirir. Təlimlərə 50-dən çox hərbi və xüsusi texnika cəlb edilib.

Cənub Hərbi Dairəsindən bildirilib ki, dəniz piyadaları şərti düşmənin dəniz desantının çıxarılmasının qarşısını alacaq müdafiəyönümlü tədbirlər reallaşdıracaq. Təlimlər zamanı müxtəlif çətinlik dərəcəsi olan 70-dən döyüş tapşırığı həyata keçirilməlidir.

***

Rusiyanın eyni vaxtda Azərbaycanın qərb (işğalçı Ermənistan) və şərq sərhədində - Xəzər hövzəsində hərbi təlimlərə başlaması, üstəlik, ordumuzun hərbi manevrləri fonunda buna start verməsi diqqət çəkməyə bilmir. Bəlkə də təsadüfdür, amma ən azı, bu manevrlər Azərbaycana qarşı "əzələ nümayişi" təəssüratı yaradır.

Xatırladaq ki, təcavüzkar Ermənistanın hava məkanını və Türkiyə və İranla sərhədini bu işğalçı ölkə formal müstəqillik qazanandan indiyədək Rusiya hərbçiləri qoruyur. Ötən il isə Rusiya ilə Ermənistan ortaq hərbi qruplaşma yaratmaq haqda anlaşma imzalayaraq təsdiq ediblər ki, bu da əksər ekspertlərə görə, Azərbaycana qarşı təhdid, onun əl-qolunu bağlamağa hesablanmış gedişdir. Düşmən ölkəyə "İsgəndər M" tipli operativ-taktik raket sistemlərinin ötürülməsi də öz yerində.

Yeni şimal qonşumuzun Ermənistanda və ya Ermənistanla birgə istənilən ortaq hərəkəti, təlimi, anlaşması əlbəttə ki, həm də Azərbaycanın maraqları əleyhinə yönəlib, nə vaxtsa Bakının öz ərazilərini güc yolu ilə azad etməsini əngəlləməyə, demək, Qarabağla bağlı status-kvonu və işğal rejimini uzatmağa hesablanıb. Rusiyanın erməni kökənli xarici işlər naziri Sergey Lavrovun "Dağlıq Qarabağda hərbi əməliyyatlar Azərbaycanın daxili işi deyil" məşhur bəyanatı bu qənaəti daha da gücləndirir.

***

Söz düşmüşkən, Azərbaycanın hərbi təlimlərinin davam etdiyi vaxtda Sergey Lavrovun və prezident Vladimir Putinin mətbuat katibi Dmitri Peskovun Moskvada erməni diasporunun lideri Ara Abramyanın yubiley tədbirinə qatılması, özü də Qarabağ separatçılarının lideri, "Kremlin tulası" ayaması daşıyan Bako Saakyanla birgə qatılması başqa maraqlı və ciddiyə alınmalı detaldır.

Azərbaycanı daima strateji tərəfdaş adlandıran Rusiya, beləcə, separatçıların liderinə nəinki öz qucağında geniş yer verir, üstəlik də öz baş diplomatını və prezident sözçüsünü onunla görüşə göndərir. Bu da Bakıya qarşı başqa bir özünəməxsus güc nümayişi deyilsə, görəsən, onda nədir? Biz hələ Azərbaycan ordusunun hərbi təlimlərə başladığı gün - aprelin 16-da "Rus NATO-su" sayılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına erməni generalın baş katib gətirilməsini demirik. Hər necə olmasa, Bakının götürəcəyi dərslər var...

❑ **Siyasət şöbəsi**

# Türkiyədə qadın lider önə çıxa bilər

## **Şahin Cəfərli:** "Meral Akşener sıradan çıxarılmasa, 2019-cu il seçkilərində Ərdoğana çox ciddi rəqib ola bilər"

**Referendumun nəticələrinin Türkiyənin gələcək siyasi həyatına təsiri ilə bağlı təhlillər davam edir. Nəticələrin ölkədəki siyasi partiyaların da həyatına ciddi təsir göstərəcəyi proqnozlaşdırılır. Məsələn, Türkiyədə referendumdan sonra MHP-dən istefalar başladığı bir zamanda narazıların yaradacağı yeni partiya gündəmə gəlib.**



MHP-də narazıların rəhbəri, keçmiş daxili işlər naziri və Böyük Millət Məclisinin sədri Meral Akşenerin yaradacağı yeni partiyanın adının Milliyyətçi Türkiyə Partiyası - MTP olacağına dair xəbərlər var. Siyasi kulislərdə yayılan məlumata görə, yeni partiyada M.Akşener çox sayda tanınmış partiya üzvlərini birləşdirmək üçün artıq fəaliyyətə keçib. "Financial Times"in xəbərinə görə, MHP daxilindəki müxalif qanadın lideri Meral Akşener AKP hakimiyyətinə meydan oxumaq üçün yeni partiya yaratmaq istiqamətində fəaliyyətə başlayıb. Xəbərdə deyilir ki, ekspertlər sağ mərkəzçi qüvvələri AKP hakimiyyəti üçün ən böyük təhlükə olaraq görür və Akşener belə bir hərəkata rəhbərlik edəcək ən yaxşı namizəd hesab oluna bilər.

**Politoloq Şahin Cəfərli bildirdi ki, Türkiyədə yeni bir sağ-mərkəzçi partiyanın yaranmasına çox ciddi ehtiyac var:** "Son referendum kampaniyası və ümumxalq səsverməsinin nəticələri də göstərir ki, milliyyətçi-mühafizəkar platformaya sahib güclü bir siyasi qüvvənin ortaya çıxması sosial sifarişdir. Ən əvvəl ona görə ki, Milliyyətçi Hərəkat Partiyasının hazırkı rəhbərliyi artıq xeyli müddətdir ki, öz sosial bazasının gözləntilərinə cavab verməkdən uzaq siyasət yeridir və zamanın tələbi ilə ayaqlaşmaqda çətinlik çəkir. MHP rəhbərliyinin hədəfi ölkədə hakimiyyətə gəlmək səviyyəsindən partiya daxilində öz hakimiyyətini qorumaq səviyyəsinə qədər kiçilib. Ankaranın Balqat səmtindəki mərkəzi qərargahla partiyanın yerli təşkilatları, hərəkətverici nüvəsi arasında əlaqə qopub. Dövlət Bahçeli və yaxın ətrafından ibarət gerontokratik-statik elita ilə ülküçü hərəkatın dinamizmi çoxdandır ki, bir-biri ilə uyuşmur. Bilirsiniz ki, ülküçülər partiya daxilində dəyişiklik etmək üçün çox ciddi cəhd göstərdilər, fövqəladə qurultay çağırmaq üçün səlahiyyətli qurultay nümayəndələrinin üçdə ikisindən imzalar toplanıldı. Lakin rəhbərlik bu tələbi qəbul etmədi və məhkəmə vasitəsilə seçkili qurultay keçirilməsinə imkan vermədi. Sonrakı mərhələdə bir sıra müxalif mövqeli yerli təşkilatlar buraxıldı, Meral Akşener, Ümit Ozdağ, Sinan Oğan, Yusuf Halaçoğlu kimi nüfuzlu simalar isə partiyadan xaric olundu. Yəni partiya daxilindəki qiyam hakimiyyətin də köməyi ilə yatırıldı və bəlli oldu ki, MHP içərisində dəyişiklik etmək mümkün olmayacaq.

Son referendum göstərdi ki, milliyyətçi-mühafizəkar kəsimə xitab edən AKP MHP rəhbərliyi ilə ittifaq qursa da, MHP-nin sosial bazasından gözlədiyi dəstəyi ala bilmədi. Konstitusiya dəyişikliyinə MHP elektoratından maksimum 2%-lik dəstək gəldiyi güman olunur. Bu, onu göstərir ki, ülküçülərin asanlıqla AKP-yə və Ərdoğana meyllənəcəyi barədə gümanlar özünü doğrultmadı, ülküçülərin yeni bir siyasət, yeni bir lider axtarışında olması çox aydın şəkildə ortaya çıxdı. Öz dinamizmi və xarizması ilə önə çıxmış Meral Akşener təbii ki, bu gözləntilərin, aşağılardan gələn bu tələbin fərqindədir. Əgər MHP daxilində dəyişiklik artıq mümkün deyilsə, bütün qapılar qapanıbsa, onda yeni siyasi partiya yaratmaqdan başqa yol qalmır".

**Ş.Cəfərli qeyd etdi ki, yerlərdə partiya rəhbərliyindən narazı olan ülküçü-milliyyətçi insanların Akşener ətrafında toplanması prosesi gedir:** "Onu dəstəkləyənlər arasında MHP-nin nüfuzlu simaları, bir sıra keçmiş millət vəkilləri, eləcə də əvvəllər Ana Vətən və Doğru Yol partiyalarında fəaliyyət göstərmiş, bu partiyaların üzvü olmuş geniş təbəqələr də var. Akşenerin personası ən müxtəlif, bir-birinə zidd ideoloji kəsimləri də cəlb edir, məsələn, onun MHP ilə yanaşı, həm AKP-dən, həm də Cümhuriyyət Xalq Partiyasından səs qoparmaq imkanları var. Bunu təbii ki, iqtidar dairələri də bilir və görür. Bu səbəblə, ötən müddətdə Meral Akşenerə qarşı əngəlləmələrin şahidi olduq. Onun MHP-də hakimiyyəti ələ keçirməsinə imkan verilmədi, referendum kampaniyası zamanı isə Akşener mərkəzi mediaya buraxılmadı, təzyiqlərə məruz qaldı, Ankarada mitinq keçirməsinə icazə verilmədi. Mən düşünürəm ki, əgər iqtidar Meral Akşener təhlükəsinin böyüdüyünü görərsə, ona qarşı FETÖ əməliyyatı təşkil oluna bilər. Məlumdur ki, MHP rəhbərliyi M.Akşenerin fətullahçı olduğunu iddia edir, hətta deyilirdi ki, 15 iyul çevrilişindən sonra baş nazir məhz Akşener olacaqdı. Ona görə də yaxın həftələrdə və ya aylarda Meral Akşener haqqında istintaq başlandığı barədə xəbər eşitsəniz, təəccüblənməyin. Amma bu addım hakimiyyət üçün müəyyən riskləri də özündə ehtiva edən addım olardı. Əgər hakimiyyət Akşenerin FETÖ ilə əlaqələrinə cəmiyyəti inandıra bilməsə, ona qarşı təqiblər əks effekt verə bilər. Türk xalqı adətən haqsız təqib olunan, onların sözü ilə desək, mağdur edilən siyasətçiyə hər zaman simpatiya ilə yanaşıb. Vaxtilə Ərdoğanın nüfuzunun yüksəlməsinə təsir edən amillərdən biri məhz onun həbsi idi. Yəni hüquqi təqibin Akşenerin reytinqinin artması ilə nəticələnməsi istisna deyil".

**Ekspert hesab edir ki, Meral Akşener hansısa səbəblə sıradan çıxarılmasa, 2019-cu il prezident seçkilərində Ərdoğana çox ciddi rəqib ola bilər.**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017



# Referendumun nəticələri Türkiyədə terror təhlükəsini artıra bilərmi?

## Elxan Şahinoğlu: "Kürdlərin böyük əksəriyyəti ərazi bütövlüyünün tərəfdarıdır"

**Aprelin 16-da Türkiyədə keçirilən referendum ətrafında gedən müzakirələr səngimir. 3 faizdən az səslə uduzan "hayır" tərəfdarlarının nəticələrlə barışmadıqları göz önündədir. Referendum dəyişikliklərinin əleyhinə gedənlərin bundan sonra fərqli yol tutacaqları ilə bağlı həyəcanlı xəbərlər dolaşmaqdadır.**

CHP-nin nəticələrin ləğvini tələb etdiyi məlumdur. "Hayır" tərəfdarlarından olan kürdlərin daha fərqli yol tutacaqları, qardaş ölkədə terror aktlarının sayını artıra biləcəkləri iddiası da var. PKK terror təşkilatının öz çirkin planlarını həyata keçirmək üçün referendumun nəticələrindən istifadəni bir şans kimi gördüyü vurğulanır. Kürdlərin siyasi qurumu sayılan Xalqların Demokratik Partiyasının (HDP) siyasi fəaliyyətini terror üzərində qura biləcəyi qeyd olunur.

**Politoloq Elxan Şahinoğlu deyilənlərin əksini düşünür:** "Kürdlərin referenduma tamamən "hayır" dediyini vurğulamaq olmaz. Kürd bölgələrində "evet" deyənlərin sayı da kifayət qədər idi. Hətta "evet" deyən kürdlərin sayı son parlament seçkisində hakim Ədalət və İnkişaf Partiyasına səs verənlərin sayından kifayət qədər çox idi. Bu o deməkdir ki, Türkiyədə yaşayan kürdlərin böyük əksəriyyəti ərazi bütövlüyünün tərəfdarıdır. PKK-nın kürd bölgələrdə mövqeləri getdikcə zəifləyir. Çünki kürdlər dağıntı, partlayış istəmirlər, normal yaşamaq istəyirlər, övladlarının terrorçulara qoşularaq Türkiyə ordusu tərəfindən zərərsizləşdirilməsində maraqlı deyillər. Son 10 ildə kürdlərin yaşadıqları bölgədə xeyli iaşə obyekti, xəstəxana, hava limanı tikilib. Həmin bölgələrdə terror olmasaydı, inkişaf daha sürətlə gedərdi, yeni iş yerləri açılardı. PKK məhz ona görə partlayışlara, terrora üstünlük verir ki, kürdlər yaxşı yaşamasınlar, iş yerləri olmasın, Türkiyə dövlətinə bağlı olmasınlar və gəlib onlara qoşulsunlar. Ancaq PKK son bir neçə ildə çox böyük zərbələr alıb. Ona görə də Türkiyədə istəyir parlament, istəyir prezident respublikası olsun, kürdlərin sosial və iqtisadi problemlərinin həlli davam edəcək. Bununla PKK öz tabanını itirməkdə davam edəcək".

**Politoloq qardaş ölkənin terrordan sığortalanmadığını da qeyd etdi:** "Türkiyə terrordan sığortalanmayıb. Türkiyəyə qarşı terrorçu təşkilatların siyahısına baxın: PKK, DAİŞ, YPG, PYD, radikal solçu, marksist və maoistlər və FETÖ. Türkiyə böyük dövlətdir, hakimiyyətdə kimin təmsil olunmasından asılı olmayaraq, millətçi və dövlətçi güclər hər zaman terrorçu qruplardan üstün olacaqlar. Terrorçuların qarşısında ordu və polis var. Terrorçular zaman-zaman aranı qata bilərlər, ancaq Türkiyəni qarışdıra bilməzlər. Türkiyə nə Liviya, nə də Suriyadır".

**E.Şahinoğlu cümhurbaşqanının statusunun müəyyən edilməsinə qədər kürdlərə qarşı sərt mübarizənin aparılacağını söylədi:** "Türkiyə prezident respublikasına çevrildi. Ancaq cümhurbaşqanının statusu 2019-cu ildən - yəni növbəti prezident seçkisindən sonra artacaq. Həmin ilə qədər və həmin ildən sonra terrorçulara qarşı amansız mübarizə aparılacaq. Türkiyə PKK-ya və DAİŞ-ə kifayət qədər zərbələr endirir. Türkiyənin Suriyada tampon bölgə yaratması DAİŞ terrorçularını Türkiyə sərhədindən uzaq tutması deməkdir. Və ya Türkiyə ordusu müxtəlif bölgələrdə PKK-ya qarşı əməliyyatlarını davam etdirir, terrorçuların böyük itkiləri var. Bu mübarizə heç zaman zəifləməyəcək. PKK-nın indiki vəziyyətdə yeganə çıxış yolu cümhur başqanı Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, ya silahları təhvil verib təslim olmalarıdır, ya da silahları torpağa gömməkdir. Üçüncü yol onları məhvə aparır".

❑ **Cavanşir ABBASLI**

---

**ABŞ "Karl Vinson" təyyarədaşıyan gəmisini Koreya sularına göndərməyib. Bu haqda İsveçin SVT kanalı məlumat yayıb. Məlumata görə, ABŞ-ın "Karl Vinson" təyyarədaşıyan gəmisi Avstraliya donanması ilə birlikdə manevr reallaşdırmaq üçün Sunda boğazını keçərək Hind okeanına istiqamətlənib. Axar.az-ın xəbərinə görə, məlumatda həmçinin "Trampın əmri"nə əsasən aprelin 25-də gəminin Yapon dənizinə çatacağı qeyd olunub. Ancaq hələlik Ağ Ev və ABŞ Donanması bu haqda heç bir açıqlama verməyib.**

---

# Şimali Koreya Rusiya və İranın "qanının arasına" girdi - dəhşətli müharibə hazırlığı

## Amerika təyyarədaşıyan gəmiləri "yolu azıb"; manevr, yoxsa...; **politoloq:** "Ola bilsin ki, Şimali Koreya ilə bağlı böhran həm də Çinə xəbərdarlıqdır"



Yayılan məlumatda deyilirdi ki, Birləşmiş Ştatların Hərbi Dəniz Qüvvələrinin komandanlığı Şimali Koreya sahillərinə daha iki təyyarədaşıyan zərbə qruplaşması göndərib. Ancaq Şimali Koreya sahillərinə doğru istiqamət alan təyyarədaşıyan qruplaşmasının aprelin 16-da Yapon dənizinə daxil olacağı gözlənilsə də, gecikməsinin səbəbi açıqlanmayıb. Mənbələr deyiblər ki, təxminən həmin günlərdə-aprel ayı ərzində Birləşmiş Ştatların daha iki təyyarədaşıyan gəmisi və onları müşayiət edən gəmilər Yapon dənizində mövqe tutacaq. Bunlar "Ronald Reyqan" və "Admiral Nimitz" təyyarədaşıyanlarıdır (virualaz.org).

Bəzi müşahidəçilər Pentaqonun prezident Trampı aldatdığını iddia etsə də, bunun bir manevr olduğunu düşünənlər də var. Hesab olunur ki, ABŞ Şimali Koreya ilə zarafatın təhlükəli olduğunu anladığı üçün nəbz yoxlanışı həyata keçirir. Ancaq ümumilikdə ABŞ-ın mövqeyi belədir ki, bölgədə sülhə nail olmaq üçün gücə əl atmağın alternativi qalmayıb. Bunu ABŞ-ın vitse-prezidenti də dilə gətirib.

Paralel olaraq Yaponiya hökuməti də Şimali Koreyaya dözmək niyyətində olmadığını, İkinci Dünya müharibəsindən sonra ilk dəfə dəniz suları boyunca hərəkətə keçəcəyini bəyan edib.

Şimali Koreyanın davranışları isə onun geri çəkilmək niyyətində olmadığını göstərir. Belə ki, Koreya lideri Kim İr Senin 105-ci ildönümünə həsr olunmuş tədbirdə nümayiş olunan görüntülərdə yeni ballistik raketlərin ABŞ ərazisini vurması təsvir olunub.

Kadrlarda raketin səmaya qalxaraq okeanı aşıb ABŞ ərazisinə düşdüyü və şəhərlərdən birini məhv etdiyi göstərilir. Sonda qəbiristanlıq fonunda ABŞ bayrağı təsbit olunur. Ekspertlərin fikrincə, Şimali Koreya aprelin 25-nə qədər yeni nüvə sınaqları keçirməyi planlaşdırır. ABŞ prezidenti də deyib ki, Şimali Koreya diktatoru ilə danışmaq mənasızdır. Çünki o, uzun müddətdir ki, hamını barmağına dolayır. ABŞ-ın təhdidlərinə cavab olaraq Şimali Koreya hərbi komandanlığı elan edib ki, Pxenyan istənilən an ABŞ-ın regiondakı hərbi bazalarına, Seuldakı prezident sarayına, Yaponiyaya və Amerika ərazisinin özünə preventiv zərbələr endirə bilər.

Bu arada ilginc məlumatlar yayılıb. Belə ki, 1994-cü ildə Amerikanın prezidenti olmuş Bill Klinton müşavirlərinə Şimali Koreya ilə müharibə ssenarisinin hansı nəticələrə gətirib çıxaracağı ilə bağlı hesabat hazırlamağı tapşırıb. Hesabatdan çıxan nəticələr dəhşətli olub. Məlumata görə, əgər Amerika Şimali Koreyaya hücum edərsə, yüz minlərlə insan həlak olacaq, Cənubi Koreya dağılacaq və işğal olunacaq, oradakı amerikalı hərbçilər böyük itkilər verəcəklər (axar.az).

**Politoloq Elxan Şahinoğlunun fikrincə, şübhəsiz ki, bu hesabat indiki prezident Donald Trampın da masasının üzərinə qoyulub. Nüvə dövlətindən hamının çəkindiyini, Şimali Koreyanın məhz nüvə ölkəsi olduğu üçün ABŞ-ın hücumda tərəddüd etdiyini xatırladan politoloq Azərbaycanda nüvə elektrik stansiyasının gündəmə gətirilməsinə ehtiyac olduğunu vurğulayıb. E.Şahinoğlu hətta nüvə silahı barədə müzakirələri də mümkün sayıb:** "Nüvə silahı barədə də danışmaq olar. Müzakirələri başlamağa bizə heç nə mane olmur".

Bu ərəfədə Moskva-Vaşinqton və Vaşinqton-Tehran gərginliyinin səngiməsinə səbəb kimi diqqətin Şimali Koreyaya yönəlməsi göstərilir. Hesab olunur ki, Şimali Koreya diktatoru özünün nüvə təhdidləri ilə digər iki dövlətin "qanının arasına girib". Söhbət dünyanı atom bombası ilə təhdid edən ölkədən gedir. Hər halda, nüvə yanacağından artıq iddiasının olmadığını deyən İran, yaxud danışıqlara üstünlük verdiyini bəyanlayan Rusiya ilə müqayisədə Şimali Koreya daha çox təhlükəlidir. Azərbaycandan min km-lərlə məsafədə yerləşsə də, bəşəriyyəti təhdid edən hadisələrin baş verməsi şübhəsiz ki, narahatlıq yaratmaya bilməz. Bu ərəfədə ABŞ-ın İran, yaxud Rusiya ilə savaş məsələsini təxirə saldığı, "Şər üçbucağı"nın ən qorxulu ölkəsi ilə haqq-hesab çəkilməsini önə çəkdiyini deyənlər var. Lakin əks fikirdə olanların da arqumentləri ciddidir.

**"ABŞ-ın Şimali Koreyaya daha çox diqqət ayırması o demək deyil ki, Rusiya, yaxud İran diqqətdən kənarda qalıb". Bunu politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a dedi. Onun fikrincə, Şimali Koreyaya qarşı reaksiyanın sərt olmasının əsas səbəblərindən biri ABŞ-ın müttəfiqləri olan Cənubi Koreya və Yaponiyanın təhlükəsizliyi və şübhəsiz ki, Çin faktoru ilə bağlıdır:** "ABŞ-ın bölgəyə göndərdiyi "Karl Vinson" atom aviadaşıyıcısında 90 təyyarə və helikopter, o cümlədən F/A-18E/F Super Hornet tipli qırıcı-bombardmançı təyyarələr yerləşdirilib. "Karl Vinson" aviadaşıyıcısını "Maykl Merfi", "Veyn İ.Meyer" destroyerləri, "Leyl Şampleyn" krayseri və atom sualtı gəmisi müşayiət edidir. Bütün gəmilər Suriyada aviabazanın vurulmasında istifadə olunan "Tomahawk" qanadlı raketləriylə təchiz olunub. ABŞ-ın Şimali Koreya sahillərinə göndərdiyi kontingentin ballistik raketləri ələ keçirmək, sıradan çıxarmaq imkanları var. ABŞ-ın, Yaponiyanın və Cənubi Koreyanın bölgədəki hərbi potensialı ilə Şimali Koreyanı bir neçə dəfə yer üzündən silmək olar. Şimali Koreyanın "çirkli bomba"ya sahib olması barədə bir-birini təkzib edən məlumatların sayı yetərincədir". **Amma E.Mirzəbəyli atom bombası ilə bağlı iddiaların Şimali Koreyanın təbliğat vasitəsi, yaxud blef olduğunu düşünür:** "Əgər Şimali Koreya atom bombasına sahib olsaydı, çox güman ki, proseslərin fərqli istiqamətdə inkişafının şahidi olardıq".

**Politoloq bildirdi ki, təyyarədaşıyan gəmilərin başqa istiqamətə göndərilməsi ilə bağlı məlumatların heç bir əsası yoxdur:** "Əksinə, aprelin sonunadək daha iki aviadaşıyıcı - "Ronald Reagan" və "Nimitz" Yapon dənizində olacaq. ABŞ hətta Şimali Koreyanın sınaq məqsədilə buraxacağı raketləri belə sıradan çıxarmaq istəyir. ABŞ-ın müdafiə naziri artıq bununla bağlı Konqresi də məlumatlandırıb. Şimali Koreyanın cəzalandırılması prosesi burdan - sınaq raketlərinin vurulmasından da başlaya bilər. Bəzi mənbələr ABŞ-ın Şimali Koreya yaxınlığındakı hərbi qrupunun arsenalında 700 "Tomahawk" raketinin olduğunu, daha 4 sualtı gəminin Yapon dənizinə yönləndirildiyini bildirirlər. Məsələ kifayət qədər ciddidir və hesab edirəm ki, Tramp ABŞ-ın geosiyasi maraqlarının sərhədlərini Uzaq Şərqdə çızmaq və Avrasiyanı hərbi çəmbərində saxlamaq istəyir. Bir məqamı xatırladım: Suriyadakı aviabazanın vurulması ABŞ və Çin liderlərinin görüşü zamanı baş vermişdi. Bunun təsadüf olduğunu düşünmürəm. Ola bilsin ki, Şimali Koreya ilə bağlı böhran həm də Çinə xəbərdarlıqdır".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Qarabağ danışıqlarının Ermənistanın həyasız davranışları səbəbindən faktiki olaraq dayandırıldığı bir dönəmdə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin işğala stimul verən davranışlar sərgiləməsi Azərbaycanı narahat etməyə bilməz. Qəribəsi budur ki, Azərbaycana “sülhün alternativi yoxdur”, tövsiyəsini verən Qərb, xüsusilə də həmsədr ölkələr işğalçı Ermənistanın yeni silahlar əldə etməsinə, ölkəmizə yönəlik təhdidlərinə reaksiyasız qalmaqdadırlar.**






# Erməni təhlükəsinə qarşı ilginc təklif: “Azərbaycan nüvə başlıqlı raketlərə malik olmalıdır”

## Minsk Qrupunun həmsədr dövlətləri işğalçı ölkənin azğınlaşmasına nəinki reaksiya vermir, üstəlik, ona dəstək verirlərsə, Bakının hərbdən başqa çıxış yolu qalmır; **ekspert:** “Artıq münaqişənin həllində diktə edən tərəf Azərbaycandır”

İşğalçı ölkənin “İsgəndər” raketləri ilə təchiz olunmasına susan beynəlxalq birlik Ermənistanın “Verba” raket kompleksi almasını da sakit qarşıladı. Aprel müharibəsindən sonra ABŞ-ın Ermənistana təmas xəttində yerləşdirmək üçün gecəgörmə cihazları göndərməsi düşməni xeyli həvəsləndirib. Düzdür, Azərbaycan ordusu ən müasir avadanlıqlara, silah-sursata sahibdir. Amma özünü tərəfsiz sayan həmsədrlərin bu davranışları heç cür qəbulolunan deyil. Hətta ermənilərin bununla bağlı açıq etirafından sonra ABŞ-ın ölkəmizdəki səfirinin XİN-ə çağırılması, ona etirazın təqdim olunması təklifləri də var.

İkinci həmsədr Rusiya da işğalı stimullaşdıran addımlarını artırıb. “Verba” hədiyyəsindən sonra Rusiya Ermənistandakı hərbi qüvvələrinin təlimlərinə start verib. Eyni zamanda Moskvada keçirilən yubiley mərasimində XİN rəhbəri Sergey Lavrovun Qarabağ separatçılarının lideri Bako Saakyanla bir məclisi paylaşması da Azərbaycanda sərt etirazlar doğurub. Bundan əvvəl Qarabağ separatçılarına idman və ya şou yarışlarında qucaq açan Moskva bu dəfə separatçı lideri ağuşuna almaqla nə dərəcədə tərəfsiz olduğunu nümayiş etdirib. Əslində bununla S.Lavrov “Dağlıq Qarabağ məsələsi Azərbaycanın daxili işi deyil” mövqeyini bir daha qətiləşdirmiş olub.

**Üçüncü həmsədr dövlət Fransaya gəldikdə, burada da ermənipərəstlik açıq-aydın nümayiş olunmaqdadır. Fransada prezident seçkiləri yaxınlaşdıqca bəzi namizədlər erməni elektoratın səsi uğrunda ən axmaq təkliflər, iddialar səsləndirirlər. Parisdəki “Nouvelles d’Armenie” nəşrinə müsahibəsində prezidentliyə namizəd Fransua Fion iddia edib ki, “2016-cı ilin aprelində Azərbaycan güc yolu ilə Dağlıq Qarabağı ələ keçirməyı cəhd edib”. Qarabağı “barıt çəlləyi” adlandıran fransız siyasətçi ardınca özünü “çoxbilmiş” kimi göstərməyə uğursuz cəhd edib.** “Yaddan çıxarmaq lazım deyil ki, Dağlıq Qarabağın statusu problemi Stalinin üzündən yaranıb. Stalin 1921-ci ildə Dağlıq Qarabağı özbaşına Ermənistandan qopararaq, Azərbaycana verib. İndi BMT-nin köməyi ilə dinc və davamlı nizamlama tapmaqdan savayı seçim yoxdur”, - prezidentliyə iddiaçı bildirib. Ancaq tarixdən az-çox xəbəri olanlar bilir ki, bu, sadəcə, sərsəmləmədir, hətta Ermənistanın indiki əraziləri də Stalindən öncə Azərbaycana məxsus olub. Sonrakı illərdə ərazilərimiz yenə sovetlər tərəfindən qəsb olunub Ermənistana calaşdırıldı və Azərbaycan ərazisi 86,6 kv.km-ədək kiçildi. Fransua Fionun ardınca Fransanın ultrasağçı Milli Cəbhə Partiyasının sədri Marin Le Pen də ermənilərin xoşuna gəlməyə çalışıb. “Qarabağ konfliktinin həlli üçün Dağlıq Qarabağ Ermənistana birləşdirilməlidir”, - deyə sərsəmləyib (axar.az) Ancaq hakimiyyətinin sonlarını yaşayan Fransua Olland da qış aylarında ermənilərlə görüşdə Dağlıq Qarabağ ermənilərinə “öz müqəddəratını təyinetmə” hüququnun verilməsi zərurətindən danışmaqla Bakının sərt etirazına səbəb olmuşdu. Qondarma “DQR”in ən böyük nümayəndəliyinin məhz Parisdə olması da çox şeyi deyir.

Rəsmi Bakı isə hələlik Fransada səslənən anti-Azərbaycan bəyanatlara reaksiya vermir. XİN-dən suallarımıza cavab almaq cəhdimiz də nəticə vermədi.

Erməni işğalçıları məhz belə dəstəyi gördükcə daha da azğınlaşırlar. “Azərbaycan hətta Avrasiya İttifaqına daxil olsa belə, Qarabağı almayacaq”. Hüquq və Siyasət İnstitutunun direktoru Larisa Alaverdyan bu iddia ilə çıxış edib. Onun fikrincə, Azərbaycanın Avrasiya İttifaqında potensial iştirakı kontekstində Qarabağ mövzusu gərəksiz qabardılır. Görünən budur ki, Ermənistanın KTMT-yə baş katibliyi ələ alması işğalçını daha sərt mövqe sərgiləməyə sövq edib.

**Politoloq Arzu Nağıyev “Yeni Müsavat”a dedi ki, Ermənistanın KTMT-yə baş katibliyi dövründə Qarabağla bağlı yeni situasiyanın yaranacağını gözləmək lazım deyil:** “Bu, heç də münaqişənin həllinə müsbət təsir etməyəcək. Lakin Ermənistanın KTMT üzvü olması o demək deyil ki, katiblik ona keçərsə, hansısa üstünlük əldə edəcək. Biz aprel hadisələrində də bunun şahidi olduq. Ermənilər dəfələrlə təmas xəttində deyil, məhz sərhəddə təxribat edərək KTMT-dən dəstək almağa çalışırdı, bu da baş tutmadı. Əsas məqam odur ki, KTMT üzvü olan dövlətlər Azərbaycanla normal münasibətdədir və hər hansı gərginliyin artmasında maraqlı deyillər. Eyni zamanda qeyd etmək istərdim ki, KTMT-nin yaradılması öncə Rusiyanın özünü qorumaq və sığortalanması üçün nəzərdə tutulub, Ermənistan isə vasitədir. Qazaxıstan və Belarusun da, eyni zamanda digər üzvlərin də Azərbaycana qarşı siyasətində dəfələrlə loyallığı hiss edilib. Digər dövlətlər də bu məsələdə neytrallıq nümayiş etdirirlər”.

**Politoloq hesab edir ki, artıq münaqişənin həllində diktə edən tərəf Azərbaycandır:** “Sadəcə olaraq, Ermənistanın güvəndiyi bir Rusiya faktoru var və bundan da yayarlanmağa çalışır. Rusiya, ümumiyyətlə, KTMT-ni ilk növbədə öz mənafeyini qorumağa, imkan qədər silahlı toqquşmaları sərhədlərindən uzaqlaşdırmağa və bufer zonaları yaratmağa çalışır. Bu, Ukraynada, Abxaziyada və s. bölgələrdə belədir. Dağlıq Qarabağın timsalında da ərazi BMT qanunlarına uyğun olaraq Azərbaycanındır və tələb işğalçıların əraziləri tərk etməsi ilə bağlıdır. Bunu bütün beynəlxalq qanunlarla Azərbaycan tələb edə bilər və tam diktə hüququ var”.

**Düşmənin “Verba” raket-kompleksi ilə bağlı təhdidlərinə gəldikdə, A.Nağıyev qeyd etdi ki, belə təhdidlər daim olacaq:** “Çünki Ermənistanda hakimiyyəti təəssüf ki, yenə müharibə partiyası zəbt edib. Bu isə status-kvonu saxlamaq üçün bir vasitədir. Əsas məqsəd danışıqlardan yayınmaq, mütəmadi olaraq atəşkəsi pozub təxribatlar törətmək və cavab atəşini isə əks tərəfin təxribatı kimi qələmə vermək cəhdləridir. Nəyin bahasına olursa-olsun erməniləri danışıqlar masasına əyləşdirmək lazımdır. Hətta güc tətbiq etməklə bunu məcburi etmək gərəkdir. Zənnimcə, ATƏT-in Minsk Qrupu əsasən bu istiqamətdə işləməlidir. Çünki artıq deklorativ bəyanatlar Azərbaycanı qane etmir. Əks halda, doğrudan da bütün regionu əhatə edə biləcək hərbi müdaxilə təhlükəsi yarana bilər. Bunu hamıdan öncə Rusiya və Ermənistan dərk etməlidir”.

**A.Nağıyev də təsdiqləyir ki, Azərbaycan hətta Avrasiya məkanına daxil olsa belə, Dağlıq Qarabağ münaqişəsinin həlli mümkün olmayacaq:** “MDB-də, eyni birlikdə olanda bəyəm bu problem həll edilirmi? Düşünürəm ki, bu, Rusiyanın ortaya atdığı növbəti bəhanədir. Məlumdur ki, Avrasiya İttifaqına üzv olmaq Avropadan siyasi cəhətdən uzaqlaşmaq deməkdir. Azərbaycan müstəqil siyasət yeridir və bu da Rusiyanı razı sala bilməz. Dağlıq Qarabağ münaqişəsi ilk növbədə Rusiyanın Ermənistana təzyiqi ilə həll edilə bilər. Siyasi və iqtisadi bloklarda təmsil edilmələr səbəb deyil, bəhanədir”.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə dedi ki, ABŞ-ın məşhur “Vaşinqton Tayms” qəzetinin Ermənistanın əldə etdiyi “İsgəndər” raket komplekslərinə mümkün nüvə başlığı quraşdırması ilə bölgədə nüvə müharibəsi təhdidi yaratması yazısına ciddi yanaşır:** “Bu cür nüfuzlu qəzetdə Ermənistanın nüvə başlığına malik olması barədə yazı yalnız məqaləni qələmə alan jurnalistin və ya ekspertin təxəyyülü deyil. Bu, lazımi informasiya ilə zəngin beyin mərkəzinin hazırladığı hesabatın tərkib hissəsidir. Ancaq bu yazı heç də o demək deyil ki, Vaşinqtonun Cənubi Qafqazdakı proseslərə baxışı radikal surətdə dəyişəcək, Dövlət Departamentinin Azərbaycana dəstəyi və ya Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə marağı artacaq. Təəssüf ki, Ermənistan Rusiyanın vassalı olsa və bu, Vaşinqtonun xoşuna gəlməsə də, Amerikadakı erməni lobbisinin təsiri altında olan siyasətçilər və mərkəzlər Ağ Evin bu yöndəki siyasətinin dəyişməsinə imkan vermirlər”.

**Ancaq E.Şahinoğluna görə, buna baxmayaraq, mənə elə gəlir “Vaşinqton Tayms” qəzetində nəşr edilən yazıya Azərbaycan Xarici İşlər Nazirliyi reaksiya verməlidir və bununla əlaqədar olaraq xüsusi bir açıqlama yayınlamalıdır:** “Belə bir bəyanatı yayınlamağı həmin məqalədəki bir neçə tezis dikdə edir. Birinci tezis: ”Ermənistan prezidenti Serj Sərkisyanın təhlükəli oyunları səbəbindən tezliklə nüvə partlayışlarının olacağı məkana çevrilə bilər". İkinci tezis: “Ermənistan regionu nüvə müharibəsi həddinə çatdırır”. Üçüncü tezis: “Ermənistan qanunsuz şəkildə Azərbaycanın qərb hissəsində torpaqları işğal edib, azərbaycanlılara qarşı hərbi təcavüz olub, o cümlədən 1992-ci ildə bu ölkənin 600 vətəndaşını kütləvi şəkildə qətlə yetirilib”. “Vaşinqton post” bu tezisləri rəsmi Bakının uzun müddətdir Ermənistan hakimiyyətinə qarşı irəli sürdüyü ittihamların təkrarıdır. Demək, rəsmi Bakının qəzetdəki bu tezisləri əlində rəhbər tutaraq Vaşinqtonun siyasətinə göz gəzdirməsi kimi müraciəti yerində olar. Ermənistanın nüvə başlıqlı raketə malik olması xəbərinə gəldikdə isə biz bu barədə ciddi qərarlar qəbul etməliyik. Nüvə dövlətlərindən hamı çəkinir. Əgər Şimali Koreyanın nüvə silahı olmasaydı, Amerika oranı çoxdan ram etmişdi. Ancaq bu qorxunc ölkənin nüvə silahına malik olması Amerikanın bu ölkəyə hücum etməsi ehtimalını azaldır. Bu vəziyyət Azərbaycan üçün də nümunə olmalıdır. Azərbaycan rəsmiləri bir ara belə bir açıqlama verdilər ki, gələcəkdə ölkədə nüvə elektrik stansiyasının tikintisi araşdırılmalıdır. SSRİ vaxtında Azərbaycanda nüvə elektrik stansiyasının tikintisi planda olub. Hətta tikintinin bünövrəsi də qoyulmaq üzrə idi. Çernobıl qəzası və SSRİ-nin süqutu bu planların üstündən xətt çəkdi. Fikrimcə, nüvə elektrik stansiyasının tikintisi mövzusunu yenidən aktuallaşdırmağa ehtiyac var. Nüvə sözünün özü işğalçıya ciddi mesaj olmalıdır. Bilirəm, ekoloji baxışları olanlar nüvə elektrik stansiyasının tikintisinin qəti əleyhinə çıxacaqlar. Ancaq müzakirələri başlamağa bizə heç nə mane olmur. Hələ bir az irəli getsək nüvə silahı barədə də danışmaq olar. Biz bilmirik Rusiyanın Ermənistandakı hərbi bazalarında nələr var. Oradan bizə təhlükə varsa, bu təhlükədən sığortalanma məsələsini də daima diqqətdə saxlamalıyıq və düşmən bilməlidir ki, onda olan silahdan daha güclüsü Azərbaycanda olacaq və olmalıdır. Bu mənada Azərbaycan nüvə başlıqlı raketlərə malik olmalıdır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017



# Vaxtilə el adəti idi, indi qətl səbəbi olub...

## Qız qaçırma Azərbaycanda insanların həyatını necə qaraldıb?

**Bugünlərdə kriminal xronikada ilginc xəbər yer almışdı. Bacısını qaçırdığı üçün dayısı oğlunu öldürən 1995-ci il təvəllüdlü Nurlan Quliyev məhkəməsində ilginc ifadələr işlədib. O, qisas məqsədilə Mahiri öldürdüyünü söyləyib: "Mahir bacımı qaçırmışdı, bu da mənə pis təsir etmişdi. Bacımın başqa sözlüsü var idi. Həmin sözü də ailələrimiz arasında kəsmişdik. Dayım oğlu Mahir bundan sonra bacımı qaçırıb".**

N.Quliyevin əlavə edib ki, bacısının Mahiri sevməsi, onlar arasında sevgi münasibətlərinin olmasından xəbərsiz olub.

Bu fakt isə öz-özlüyündə Azərbaycandakı ənənələrin tamamilə dəyişdiyini göstərir. Təsəvvür edin ki, illər öncə qaçırılma adi məişət hadisəsi, sıradan bir evlənmə öncəsi prosedur olsa da, hazırda buna görə cinayət işi açılır, insanlara iş verilir. Bundan başqa, insanlar qaçırılma faktını "elin adəti" kimi qəbul etməkdən daha çox, "namusa sataşma" kontekstində qəbul edirlər. Nə dəyişdi? Qaçırılma dünəndən bu günə öz xarakterini, rəngini, statusunu nəyə görə başqa formaya keçirdi?

Əksər hallarda qız qaçırıldıqdan sonra oğlan kəbin kəsdirib toy edirdi. Məhəllə ağsaqqalları işə qarışıb tərəfləri barışdırsa da, qızın ata-anası artıq övladlarına cehiz vermir və o, ömrünün sonuna kimi el içində "qaçan gəlin" adı daşıyırdı. Qızın və ya oğlanın ata-anası heç cür bununla barışmadıqda, cavanlar həmin kənddən və ya şəhərdən köçməyə məcbur olurdular.

Dediyimiz kimi, keçmişdəki bəzi ənənələrimiz artıq deqradasiyaya uğrayıb. Bu səbəbdən də indi qaçırılmanın motivlərinə də "kosmetik dəyişikliklər" edilib. Məsələn, bunlardan biri qızın razılığı ilə baş tutandır. Bu halda qaçırılmaya qızın ailəsinin narazılığı səbəb olur. İkinci geniş yayılmış hal isə həm qızın, həm də valideynlərinin razılığı ilə baş tutandır. Bu hal adətən tərəflərin maddi vəziyyəti yaxşı olmadığı vaxt baş tutur. Bu zaman hər şey əvvəlcədən planlaşdırılır, tərəflər qrafiki qurur, qız "qaçırılır", sonra da yüngülvari bir mərasimlə bu iş qeyd edilir. Qaçırılmanın ən az yayılan növlərindən biri isə zorla, bəzənsə qisasçılıq zəminində baş tutanlardır. Bu zaman nə ailələr, nə də qızın özü buna razı olur. Oğlan, ya da onun qohumları bu prosesi ya qızın ailəsindən qisas almaq, ya da istədikləri bir izdivacı gerçəkləşdirmək üçün edirlər. Məhz bu halda oğlanı da, qaçırılmada iştirak edənləri də polisə verirdilər.

Bir sözlə, qonum-qonşu, el-oba bu cür üzdəniraq "evlənmə yolları"nı heç vaxt bəyənməyib, pis qarşılayıb. Belə nikah üsulu xalqımız arasında geniş yayılmayıb.

Əslinə qalarsa, son əsrlərin toy mərasimləri, özü-özlüyündə, ulu əcdadımız Oğuz türklərinin qədim "qızqaçırma" adətinin uzaq əks-sədası, bir növ onun yamsılanmasıdır. Sonralar gəlin aparılan zaman icra olunan qabaqkəsdi, qapıbasdı, pərdəapardı və s. adətlər, ümumi rəyə görə, həmin əski "qızqaçırma"nın izi, qalığıdır.

Azərbaycan cinayət qanunvericiliyi qadını evlənmək məqsədilə qaçırma halını cinayət kimi qəbul edib. 2000-ci il sentyabrın 1-dək qüvvədə olan Cinayət Məcəlləsində qadını evlənmək məqsədilə oğurlama (129-cu maddə) cinayəti 3 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tuturdu. Eyni hərəkətlər yetkinlik yaşına çatmayan şəxs barəsində edilərsə, 5 ilədək müddətinə azadlıqdan məhrumetmə cəzası nəzərdə tuturdu. Lakin 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmiş yeni Cinayət Məcəlləsində bu əməl adam oğurluğu kimi tanınır və 144-cü maddə ilə tövsif olunur. Həmin Məcəllə ilə bu əməl 5 ildən 12 ilədək, eyni əməllər yetkinlik yaşına çatmamış şəxs barəsində törədildikdə 10 ildən 15 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutur.

Xatırladaq ki, bununla bağlı son illər kriminal jurnalistlər xeyli ilginc hekayələr də yazıblar. Bir neçə il əvvəl Yevlaxda baş vermiş bir qaçırma olayına görə 8 il həbs cəzası alan oğlanın hekayəsi mətbuatda uzun müddət müzakirə olunmuşdu.

Amma Azərbaycanda qaçırılan, yəni "adı çıxan" qızın nə özü, nə də ailələri bu olayla bağlı polisə adətən şikayət etmirlər. Çünki bu halda oğlanın türməyə göndərilməsi, qızın isə ata evinə qayıtması gözlənilir. Buna isə razılaşaq ki, ölkəmizdə razı olanlar az tapılar.

Vəkillər isə bizə açıqlamalarında bildirdilər ki, əslində qızqaçırma ilə adam oğurluğu arasındakı fərqi məhkəmədə də dərhal anlayırlar. Sadəcə, qanunvericilik Qərb dəyərləri ilə yazıldığı üçün milli mentalitet nəzərə alınmayıb. Bu səbəbdən də hakimlər çox vaxt olaydakı gerçək izi nəzərə alıb, daha yüngül cəza verirlər.

❑ SEVİNC

# Məmur və qızı 400 min dollarlıq toyundan danışdılar...

## Aysel Şükürova: "Əcəb etmişik, heç kimə dəxli yoxdur"

## Qüdrət Şükürov: "Məndə 400 min haradan idi? Bu barədə yazılanların hamısı boş söhbətlərdir"

**Son iki gündə gündəmin ən çox müzakirə olunan mövzularından biri də Bakı Lift İdarəsinin baş direktoru Qüdrət Şükürovun qızı Aysel Şükürovanın 400 min dollara başa gələn toy mərasimi ilə bağlıdır.**

Hadisənin qəhrəmanı, yəni A.Şükürova özü artıq mediaya danışıb. O, missiya.az açıqlamasında bildirib ki, toyuna 400 min dollar xərclədiyi və 40 min dollarlıq "Love Story" çəkdirdiyi barədə yazılan xəbərlər əsassızdır. "Heç kim Bakıda 400 minlik toy etməz. Bu qədər pulu olan gedib başqa yerdə toy edər. Barəmdə yazılan xəbərlər yalandır. "Love Story"ni reklam etmək şərti ilə Fuad İsmayılov pulsuz çəkib. Düzdür, biz Maldiv adalarına bal ayına getmişik. Şəkil çəkdirmişik. Əcəb etmişik. Heç kimə dəxli yoxdur".



Qüdrət Şükürov

**Toylarının Bakıda yerləşən "Böyük Saray" şadlıq evində olduğunu deyən Aysel bildirib ki, bütün xərcləri yoldaşı və onun ailəsi çəkib:** "Atamın o qədər pulu yoxdur ki, getsin mənə elə bir toy etsin. Həmçinin ikinci toyum olduğu üçün mərasimi atam etməyib. Yoldaşımın birinci toyu olduğu üçün dedi ki, hər şeyi boynuma götürürəm və toyu özüm edəcəm. Mənim ailəm barədə yazılanların heç bir əsası yoxdur. Toyun keçirildiyi şadlıq evindən məlumat ala bilərsiniz. Həmin şadlıq evində nazir və digər imkanlı şəxslər övladlarına toy ediblər. Heç onlar toya iddia edilən məbləğdə pul xərcləməyiblər".

**Aysel Şükürova atası və özü barədə yayılan məlumatları keçmiş həyat yoldaşı Elşən Əsgərli ilə əlaqələndirib:** "O yanır. İndiyə qədər yalnız fərziyyələr danışıb. Hazırda mənimlə bağlı yalan xəbərlər yayır. Oktay və mənim toyumla bağlı video yanvarın 21-dən "Youtobe"dadır. Elşən yalan faktlar əsasında yazılan 400 min dollarlıq toy məsələsini məqsədli şəkildə ortaya atıb. Elşən mənim həyat yoldaşımdan boşanmağımı istəyir. Amma o, bunu görməyəcək".

**Keçmiş həyat yoldaşı Elşən Əsgərlinin "Əsgərlikdə olanda, Aysel gedib özünə oğlan tapıb" iddiasına da münasibət bildirən Aysel Şükürova eks-əri barədə dəhşətli faktların üstünü açıb:** "Onun danışdıqları yalandır. Mən onunla Dövlət İqtisadiyyat Universitetində təhsil almışam. 2012-ci ildə ailə qurmuşam və heç 3 il evli qalmamışam. Ad günümdə məni vurdu. Elə həmin gün hər şeyə son qoydum. Atamgil onu evdən qovdular".

**Ayselin sözlərinə görə, Elşəndən əsgərlikdə olanda ayrılıb:**

"O, əsgərlikdə olanda bir dəfə də zəng vurub necə olduğumu soruşmayıb. Mənimlə maraqlanmayıb. Nakotik istifadəçisidir. Hamilə olanda məni döyüb, əlimi kəsib. Bakıda yerləşən xəstəxanalardan birində qeydiyyatdayam. Əxlaqsız qadınlara pul xərcləyib və narkotik çəkirdi. Mən faktlarla danışıram. O, insanı araşdırsaz, görərsiz ki, narkoloji dispanserdə qeydiyyatdadır. Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsi iki dəfə onu tutub. Onun ölkədən çıxışına qadağa qoyulub. Çünki Ukraynada narkotik üstündə tutulub. Telefonunda çoxlu mesaj tutdum. İndi bilmir ki, aranı necə qızışdırsın".

**A.Şükürova keçmiş ərinin "Onun həyat yoldaşı "Porche" sürür. Həmin maşını ona Ayselin atası, rüşvətxor məmur alıb" iddiasına da cavab verib:** "Yalandır. Əksinə, biz Elşənə "Porche" almışıq. Mənim həyat yoldaşım Oktay heç kimin hesabına yaşamayıb. Hər şeyi özü edib. Amma Elşən həmişə məndən pul alıb". O, eks-əri barədə bir neçə faktın üstünü açıb. Ayselin sözlərinə görə, Elşən Səbayel Rayon Polis İdarəsinin 9-cu polis bölməsinin qarşısında onu və həyat yoldaşını videoya çəkdiyi üçün dava düşüb...

**Aysel məsələnin hüquqi çərçivədə həll ediləcəyini bildirib:** "Mənim barəmdə irəli sürülən iddialar və xəbərlər namus söhbətidir. Belə qalmayacaq".

Qeyd edək ki, toy mərasimi yanvarın 21-də "Böyük Saray"da baş tutub Qüdrət Şükürovun qızı Aysel Şükürova Oktay adlı şəxslə nikah masasına oturub. Ötən gün isə cütlük barədə 400 min dollarlıq toy iddiası ölkə mediasının gündəmini zəbt edib. Qüdrət Şükürovun qızına etdiyi toy mərasiminin 400 min dollara başa gəlməsi, bu dəbdəbəli toy mərasiminin şəkillərinin, videolarının paylaşılmasından sonra sosial şəbəkələrdə geniş müzakirə olunub. Daha sonra keçmiş həyat yoldaşı Aysel Şükürova və onun atası Bakı Lift İdarəsinin baş direktoru Qüdrət Şükürov barədə qalmaqallı açıqlama verib. O bildirib ki, Qüdrət Şükürov büdcədən pul mənimsəmək üçün dəstə toplayıb lift oğurlayır.

**Q.Şükürov da publika.az-a açıqlamasında bu iddiaları yalanlayıb. Deyib ki, haqqında yazılanların heç biri doğru deyil:** "Mən toya çox xərc çəkməmişəm. O toya xərci oğlan evi çəkib. Məndə 400 min haradan idi? Bu barədə yazılanların hamısı boş söhbətlərdir. Bu məlumatları Elşən Əsgərli yayır. O, qələt edib, yalan danışır. O, narkoman və şərəfsiz adamdır. Onu hamı yaxşı tanıyır. Deyir ki, guya "Porche" hədiyyə etmişəm və sairə. "Porche" olsaydı, elə özüm sürərdim də! Mənim heç bir maşınım da yoxdur. Hazırda gəzdiyim bir maşın var, onu da dövlət verib..."

**Q.Şükürov MTN-nin sabiq idarə rəisi, hazırda məhkəməsi gedən Akif Çovdaovla qohumluq əlaqəsi barədə yayılan məlumatlara da cavab verib:** "Akif Çovdarovla da heç bir qohumluq əlaqəm yoxdur. Ümumiyyətlə, biz bir-birimizi tanımırıq. Biz ayrı-ayrı yerlərdənik. İndi kimsə durub ağzına gələni danışır. Bizə şər atırlar. Artıq qızımgil həmin oğlanı məhkəməyə də veriblər".

"Yeni Müsavat" isə ata-balanın toyla bağlı dedikləri məqamı araşdırmaq üçün onun keçirildiyi "Böyük Saray"dakı qiymətlərlə maraqlanıb. Şadlıq sarayından əməkdaşımıza bildirildi ki, burada 3 cür menyu var və onların da fərqli qiymətləri var. Adambaşına bir nəfərlik masanın minimal qiyməti 220 AZN-dən başlanır. Digər menyulara keçək: 250 AZN-lik və 300 AZN-lik.

Şadlıq saraylarındakı zallar böyük həcmli olduğu üçün ora 400 nəfərdən aşağı qonaq qəbul edilmir. "Böyük Saray"dan öyrəndik ki, qonaqlar daha çox 800 nəfərlik orta zalı tərcih edirlər. Amma ikinci mərtəbədə yerləşən 1620 nəfərlik zal da toy və iri mərasimlər üçün nəzərdə tutulub.

İndi gəlin elementar hesablama aparaq. Şadlıq sarayından bildirdilər ki, burada 400 nəfərdən az qonaq qəbul edilmir. Hesab edək ki, toya 400 nəfər çağırılıb və ən "ucuz" menyu olan 220 AZN-lik menyu seçilib. Bu, ev sahibinə 88.000 AZN-ə başa gəlir. Yox, əgər menyu 250 AZN-lik, qonaqların sayı isə 800 nəfərdirsə, bu, 200.000 AZN-lik xərc deməkdir. Ən maksimal həddi də hesablayaq. 300 manatlıq menyu və 1620 nəfər qonaq. Bu halda da toy sahibi şadlıq sarayına 486.000 AZN ödəməlidir. Yəni təxminən yarım milyona yaxın vəsait...

Daha bir məqam isə ondan ibarətdir ki, sözügedən qiymətlərə nə müğənni, nə də fotosessiya xərcləri daxildir. Yəni şadlıq sarayı qonaqlara və ev sahibinə ekstra hansısa xidmət təklif etmir. Bunun üçün toy sahibi əlavə pul ödəməlidir. Bu halda toyun 400 min dollara başa gəlməsi ilə bağlı deyilənlər də inandırıcıdır. Sıradan müğənnilərin belə fonoqramla yarım saat çıxış üçün 5000 AZN tələb etdiyini nəzərə alanda... bunun müğənni, gəlinlik, maşın, fotosessiya...və ağlınıza gələcək-gəlməyəcək minlərlə əlavə xərcini də hesaba qatıb, yazılanların fantaziya olmadığı qənaətinə vara bilərik.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017



# Ətin bahalaşmasının iki mühüm səbəbi

## Örüş sahələrinin əkilməsi və gömrük rüsumunun artırılması heyvandarlıq sahəsində bahalaşma yaradır

**Dövlət Statistika Komitəsi son illərdə ilk dəfə ölkədə heyvandarlıq sahəsində tənəzzülün yaşandığını təsdiqləyən rəqəmlər açıqlayıb. Komitənin təqdim etdiyi rəqəmlərə görə, bu ilin ilk 3 ayında əvvəlki ilin eyni dövrünə nisbətən iribuynuzlu mal-qara 12.8 min baş, qoyun və keçilər isə 42.5 min baş azalıb. Ekspertlər isə azalmanın daha çox olduğunu deyirlər.**

Dövlət Statistika Komitəsinə görə, aprel ayının əvvəlinə ölkədə 2 milyon 706.8 min baş iribuynuzlu mal-qara var. Bunun 1.3 milyon başı inək və camışlardır. Qoyun və keçilərin sayı isə 8 milyon 785.5 min başdır. Üç ayda 115.4 min ton ət (diri çəkidə) istehsal olunub. DSK həm də ilin əvvəlindən ət məhsullarının 10 faizdən çox bahalandığını, ət istehsalının isə 3.2% artdığını açıqlayıb.

Ekspertlər isə hesab edir ki, ət məhsullarının bahalaşmasının səbəbi dövlət tərəfindən örüş sahələrinin zəbt edilərək digər məhsulların əkini üçün ayrılmasıdır. Bu, yemin qıtlığına və son nəticədə ətin bahalaşmasına gətirib çıxarır.

**İqtisadçı ekspert Natiq Cəfərli də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ətin bahalaşmasında örüş sahələrinin əkin sahələrinə çevrilməsi az rol oynamır:** «Bölgələrdən gələn xəbərlər də onu deməyə əsas verir ki, ənənəvi maldarlıq və heyvandarlıqla məşğul olan rayonlarda belə otlaq sahələrində strateji bitkilərin, əsasən də pambıq əkininin həcmi artıb. Bu da yemi bahalaşdırıb. Yemin bahalaşması isə heyvanın maya dəyərinə təsir göstərir və heyvan saxlayan fermerləri qiyməti artırmağa məcbur edir. Əsas səbəb bu olsa da digər səbəblər də var.

Səbəblərdən biri odur ki, mal-qara saxlayan insanların da gündəlik tələbatları var. Son dövrlərdə ölkədə kifayət qədər qiymət artımı olduğu halda, mal ətinin qiyməti uzun müddət dəyişməz olaraq qaldı. Hətta devalvasiyadan sonra da biz qiymət artımını görmədik. Ancaq indi həmin insanların da xərcləri artıb. Söhbət oliqarxlardan və ya iri sürülər saxlayan insanlardan getmir, daha çox kiçik fermerlərdən gedir. Belə bir vəziyyətdə təbii ki, onların bazara çıxartdığı məhsulların qiymətində də artım olmalıdır. Çünki onlar da artan xərclərini qarşılamalıdırlar.

Ətin bahalaşmasında gömrük rüsumlarının artırılması da rol oynayır. Daxili bazarın qorunması adı altında xaricdən gətirilən mal-qaranın yüksək gömrük rüsumu ilə ölkəyə daxil olması qiymətlərə də təsir etdi. Açıq demək lazımdır ki, əvvəllər gömrük rüsumu ödəmədən, müəyyən haqq ödəməklə ölkəyə mal-qara gətirmək mümkün idi. İndi gömrük rəsmiləşməsi ciddiləşib, mal-qaraya gömrük rüsumu ödədikdən sonra insanların Gürcüstandan, Dağıstandan mal-qaranı alıb Azərbaycana gətirməsi iqtisadi baxımdan sərfəli olmur. Bütün tarifləri və rüsumları ödədikdən sonra ətin qiyməti indikindən də baha olmalıdır ki, onlar xərclərini çıxara bilsinlər. Təbii ki, bunun da rolu var. Bu, yerli istehsalçını qorumaq adı altında həyata keçirilsə də, həm istehsalçılara, həm də vətəndaşlara ziyan oldu. Vətəndaşlar daha baha məhsul almaq məcburiyyətində qaldılar. Toyuq əti ilə bağlı da eyni hal baş verdi. Nəticədə yerli istehsalçılar da qiyməti qaldırdılar. Çünki yerli istehsalçıların tələbatı tam ödəmək gücü yoxdur. Bazara daxil olan xarici malların qiyməti qalxan kimi, yerli istehsalçılar da qiymətləri qaldırırlar. Hökumətin atdığı addımlar da ət və ət məhsullarının bahalaşmasında mühüm rol oynayır".

**İqtisadçının fikrincə, hökumətin ətin bahalaşmasının qarşısını almaq üçün ata biləcəyi ən asan və tez addım gömrük rüsumlarının azaldılmasıdır:** "Gömrük rüsumlarını azaltmaqla ölkəyə mal-qara idxalını azaltmaq və bazarda bolluq yaratmaq mümkündür. Bazarda bolluq yaranarsa, bu, mütləq qiymətlərə də təsir göstərəcək. Problemin ən asan həlli yolu budur. Daha uzunmüddətli və dayanıqlı həll yolu isə daxili istehsalın artırılması üçün ciddi addımların atılmasıdır. Təəssüf ki, indi bu addımlar görüntü xətrinə atılır. Təəssüf ki, dayanıqlı inkişaf proqramları həyata keçirilmir. Çünki kənd təsərrüfatında əgər fermerlərə uzunmüddətli və aşağı faizli kreditlər verilmirsə, bu sahələrin inkişafı dövlət subsidiyaları hesabına uzun müddət davam edə bilməz. Bunu sovet dövründəki təcrübəmiz də sübut elədi. O dövrdə də hər şey dövlətin əlində idi, dövlətin subsidiyası ilə həyata keçirilirdi. Lakin sovet hökumətinin son illərində biz qıtlıqla, ərzaqların talonla verilməsi ilə qarşılaşdıq. Azərbaycanda indi belə bir təhlükə yoxdur, ancaq qiymətlərdə özünü əks etdirir. Hökumət uzunmüddətli strateji yol xəritələrində zaman və maliyyələşmə məsələsinə ciddi diqqət yetirməlidir".

❑ **Nərgiz LİFTİYEVA**

# Canavarlar hansı halda öldürülə bilər?

## Raquf Mirzəyev: "Əgər canavar insan həyatına təhlükə törədirsə, təqib etmədən vura bilərlər"

**Canavarların insanlara və qoyun sürülərinə, kəndlilərin şəxsi təsərrüfatlarına hücum etməsi barədə tez-tez eşidirik. Bundan qorxan bəzi kənd sakinləri hətta ov tüfəngini əl altında saxlayır ki, təhlükə zamanı özünü müdafiə edə bilsin. Ancaq qanunvericilik canavarların vurulmasını qadağan edir. Belə olan halda isə insanları bir sual düşündürür: əgər canavar hansısa bir kəndlinin həyətinə soxularaq, toyuq-cücəsinə, şəxsi təsərrüfatına ziyan verərsə və ya ov zaman, hansısa bir canavar ona hücum edərsə, özünü necə müdafiə etsin? Əgər canavarı öldürsə cərimələnəcək, öldürməsə də özü öləcək və ya təsərrüfatına ziyan dəyəcək.**



Maraqlıdır, canavarları hansı hallarda və necə öldürmək olar?

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Ətraf mühitin mühafizəsi departamentinin sektor müdiri Raquf Mirzəyev bildirdi ki, canavar yalnız kiməsə hücum etdiyi zaman vurula bilər:** "Ov qaydalarına əsasən, Azərbaycanda canavarların vurulması qadağandır. Azərbaycanda ov edilməsi Azərbaycan qanunları ilə tənzimlənir və hər il may ayının 30-da açılır və mart ayında bağlanır. Bu mövsümdə ovlanacaq quş və heyvanların normaları, adları, harada olacaqları barədə qeyd olunur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilən ova icazə bileti əsasında yalnız şənbə-bazar günləri müəyyən edilmiş yerlərdə ov edilməsinə icazə verilir. Ancaq canavarın ovlanması birmənalı şəkildə qadağandır. Bizim regionlarda ekologiya və təbii sərvətlər şöbələrimiz var. Demişik ki, canavar təhlükəsi olanda ora müraciət edin. Ekologiya və təbii sərvətlər şöbələrində bələdiyyə, yerli icra nümayəndəsi , baytarlıq xidmətinin nümayəndəsi və təcrübəli ovçuları cəlb etməklə xüsusi qrup yaradılır və həmin canavarlar xüsusi vasitələrlə, səs-küy çıxarmaqla oradan uzaqlaşdırılır. Ancaq əgər canavar insan həyatına bilavasitə təhlükə törədirsə, təqib etmədən onu vura bilər. Yəni əgər canavarı təqib edib, izləyib vurarsa, bu, qanun pozuntusudur İnzibati Xətalar Məcəlləsinə görə, həmin şəxs 1000-2000 manat məbləğində cərimə olunur. Əgər insan üzərinə hücum edirsə, son zərbə kimi onu həmin şəxs vura bilər. Belə olan halda da yenə şəxs Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət etməli, mütəxəssislər gəlib baxmalıdır ki, bu onu doğrudan da təqiblə yox, üzərinə hücum etdiyi üçün vurub. Belə olan halda mövcud olan cəza qanunu həmin şəxsə tətbiq edilmir".

**R.Mirzəyev 65 nəfərin ov qanunlarını pozduğuna görə saxlanıldığını dedi:** "Cari ilin 3 ayı ərzində aparılan araşdırmalara əsasən 65 nəfərə yaxın şəxs qanun pozuntusuna görə saxlanılıb. Qanunvericiliyə uyğun qaydada tədbirlər görülüb. Ov tüfəngi, 147 patron, 15 ədəd qanunsuz ovlanmış quş və heyvan götürülərək həmin şəxslər məsuliyyətə cəlb edilib. Həmin şəxslərdən 6 nəfəri inzibati qaydada cərimələnib. 9 nəfərin şəxsiyyətini müəyyənləşdirmək üçün hüquq-mühafizə orqanlarına müraciət olunub. Şəxsiyyətləri müəyyənləşəndən sonra onlar barəsində də qanunverici qaydada tədbirlər görüləcək".

Qeyd edək ki, sovet dövründə canavarı vurub dərisini, başını gətirib təhvil verən adama mükafat verirdilər. İndi isə canavarların vurulması Beynəlxalq Konvensiya ilə tənzimlənir. Canavarlar da çox çətin şərtlərlə həyatda qalmağı bacarırlar, xüsusən də qış aylarında. Onlar qışda həyatda qalmaq, pusquya düşməmələri üçün qəribə bir sistemləri olur. Belə ki, qabaqda sürünün ən zəif, xəstə 3 qurdu gedir. Pusqu olacaqsa, məhz ilk ölən həmin qurdlar olacaqdır. Digər vəzifələri isə arxadan gələnlər üçün qarda ilk yolu onların açmalarıdır. Sonra ən təcrübəli 5 döyüşçü canavar da sıranı müşayiət edir . Ortada 11 dişi canavar müdafiə sistemində yeriyirlər. Dişiləri, sürünün arxasında olmaqla, 5 təcrübəli döyüşçü canavar izləyir. Ən arxada sürüdən müəyyən məsafə ilə yeriyən isə sürünün lideridir. O, davamlı olaraq sürünün hamısını görməlidir. Hər hansı bir hücum anında lider özünü ön plana ataraq müdafiə vəziyyətinə keçir. Canavar sürülərində bu inanılmaz sistem alimləri də heyrətə gətirib.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017

# “Leş mafiyası”na qarşı ciddi tədbirlər planlaşdırılır

## Kolbasa-sosiska sexləri, restoranlarda reydlər həyata keçiriləcək

**“Leş mafiya”sı haqda mətbuatda yazılar dərc olunandan sonra bazarların ətrafında murdar ət satışının nə yerdə olması ilə bağlı araşdırma apardıq. Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov qəzetimizə açıqlamasında demişdi ki, murdar ətlərin daimi satış ünvanları “Təzə bazar”ın alt qapısı, 4-cü mikrorayonda ət bazarı, 3-cü mikrorayon bazarı, 8-ci kilometr bazarının həndəveridir. Əlavə etmişdi ki, belə ətlərin ticarəti əsasən gecələr baş tutur. Murdar ətləri nisbətən sağlam ətlərin arasına qatıb satırlar.**



AİB sədrinin ardınca qəzetimizə müsahibə verən Kənd Təsərrüfatı Nazirliyinin sözçüsü Yolçu Xanvəli bu sahədə görülən işlərlə bağlı çox maraqlı statistik məlumatlar açıqlamışdı. Bildirmişdi ki, 2016-cı ildə 1 milyon 247 min 528 müayinə nəticəsində 13 ton müxtəlif növ heyvan və quş ətinin , 33 tondan artıq iri və xırda buynuzlu heyvanların daxili orqanları, 3.6 tondan artıq balığın, 9 tondan artıq süd və süd məhsullarının, 21 min ədəddən artıq yumurtanın, 185 kiloqram yağın insan qidası üçün yarasız olması aşkar edilərək baytarlıq qanunvericiliyinə uyğun olaraq məhv edilib. Qida məhsullarının təhlükəsizliyi ilə bağlı keçirilən reydlər zamanı mənşəyi məlum olmayan, Dövlət Baytarlıq Xidmətinin müvafiq laboratoriyalarından keçməyən, insan qidası üçün yararsız 23 ton heyvan ətləri, 53 ton kolbasa və kolbasa məmulatları satışdan çıxarılaraq məhv edilib.

Maraqlıdır ki, mətbuatda yazılanlara rəğmən E.Hüseynovun göstərdiyi ünvanlarda şıdırğı alver davam edir. Bəs gecə yarısı satışa çıxarılan ətlərin alıcıları kimlərdir? Əlbəttə ki, şər vaxtı 100-200 kiloqram, bəzən daha artıq əti sıradan bir vətəndaş alıb evinə aparmır.

Restoranların, uşaq bağçalarının, xəstəxanaların, dönərxanaların, kolbasa və kolbasa məmulatları sexlərinin işçiləri, sahibləri belə ətlərin potensial alıcılarıdır.

E.Hüseynov qəzetimizə müsahibəsində çox ağrılı bir məqama da toxunmuşdu. Demişdi ki, uşaq bağçalarında uşaqlara belə ətlərin verilməsi şübhələri var. Birlik sədri bu sahədə nəzarətsizliyin belə bir durumun yaranmasına gətirib çıxardığını demişdi. Y.Xanvəli isə uşaq bağçalarında qazana belə ətlərin tökülüb bişirildiyini və uşaqlara verildiyini istisna etməmişdi.

Buradan da belə nəticə çıxarmaq olar ki, bu məkanlar “Leş mafiyası”nın dayaq nöqtələridir. Restoranlarda, uşaq bağçalarında, xəstəxanalarda, dönərxanalarda qidalananlar, dükan-bazardan kolbasa alıb evinə aparanlar murdar əti özləri də bilmədən qəbul edirlər. Özlərinin, yaxınlarının sağlamlıqlarını risk altına atdıqlarını da fərq etmirlər. Xüsusən kolbasa məmulatlarının tərkibini əsasən belə ətlərin təşkil etdiyi istisna deyil.

Ölkə başçısının 2 il əvvəl sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması ilə bağlı tapşırığından sonra bu sahədə vəziyyət xüsusi olaraq ağırlaşıb. Hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyatlar zamanı at, mənşəyi bilinməyən digər ətlərin alverini edən şəxslər saxlanır. Cərimə edilən belə şəxslər fəaliyyətlərini davam etdirirlər. Bu vəziyyət artıq dövlət qurumlarını da narahat etməyə başlayıb. Aldığımız məlumata görə, yaxın günlərdə murdar ət satılması, qida şəklində müştərilərə təqdim edilməsi şübhəsi olan iaşə obyektlərində, restoranlarda, ət emalı sexlərində, kolbasa sexlərində, uşaq bağçalarında total yoxlamaların həyata keçirilməsi planlaşdırılır. Murdar ət satışı ilə məşğul olan şəxslər, obyektlər haqda məlumatlı olan vətəndaşlar AİB-ə, Daxili İşlər Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə, həmçinin qəzetimizə bu haqda məlumat verə bilərlər.

❑ **E.MƏMMƏDƏLİYEV**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

✳ Diaqnozu bilinməyən ağır hallar;
✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
✳ Sidikdə və spermada qan;
✳ Spermanın azalması, itməsi;
✳ Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Bakıda “Bakcell”in dəstəyi ilə uşaqlar arasında şahmat üzrə beynəlxalq turnir keçirilib

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti Azərbaycan Şahmat Federasiyası, «Gənclik» şahmat klubu və Azərbaycandakı Fransız İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən XVI Beynəlxalq uşaq şahmat turnirinə dəstək göstərib.**

**9-14 aprel 2017-ci il tarixləri arasında FİDE qaydalarına uyğun olaraq 7 turdan ibarət İsveçrə sistemi üzrə keçirilən yarışda 2002-ci il və kiçik təvəllüdlü Azərbaycan, Rusiya, Türkiyə, İran, Gürcüstan, Fransa, Portuqaliya və Qazaxıstandan 56 gənc şahmatçı iştirak edib.**

**Yarışlarda ən çox xal yığan Azərbaycanlı şahmatçılar Fransada keçiriləcək Beynəlxalq Turnirdə iştirak etmək imkanı qazanıblar. Turnirin digər qalibləri isə «Bakcell» şirkəti tərəfindən smartfon və dəyərli hədiyyələrlə təltif ediliblər.**

**Onu da qeyd edək ki, «Bakcell» şirkəti 2006-cı ildən başlayaraq Azərbaycanda uşaqlar arasında təşkil edilən çoxsaylı yerli və beynəlxalq səviyyəli şahmat turnirlərinin təşkilinə dəstək göstərib.**

bakcell

## «Bakcell» abunəçiləri Azərbaycanın bölgələrində 3-cü dəqiqədən sonra pulsuz danışacaqlar

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti daha sərfəli YeniDoğma tarifini təqdim edir. Bu yeni tarifin istifadəçiləri şəbəkədaxili zənglərin 3-cü dəqiqəsindən sonra pulsuz danışacaqlar. Zənglərin ilk 3 dəqiqəsi zamanı isə bir dəqiqənin qiyməti 4 qəpik təşkil edir. Ölkədaxili digər zənglərin bir dəqiqəsinin qiyməti də həmçinin 4 qəpik təşkil edir.**

**Bu sərfəli tarifdən faydalanmaq üçün sadəcə olaraq *138#5#YES kodunu yığmaq və ya YeniDoğma tarifində olan yeni nömrə almaq yetərlidir. Bütün CIN və Klass tarifinin istifadəçiləri həmçinin bu təklifdən yararlana bilərlər.**

**Qeyd etmək lazımdır ki, pulsuz şəbəkədaxili danışıqlar zəngin 4-cü dəqiqəsindən 30-cu dəqiqəsinə qədər təqdim edilir və bu müddət bitdikdən sonra pulsuz danışığa davam etmək üçün abunəçinin balansından növbəti 3 dəqiqə zamanı vəsait çıxılır. Qiymətlər Bakı şəhəri, Sumqayıt şəhəri və Abşeron yarımadasından kənar bölgələrdə qüvvədədir.**

**Elan**

**Bilal oğlu Mehmet Yaşara aid miqrasiya vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Mərkəzdə, “Gənclik” metrosunun çıxışında kupçalı tam 3 otaqlı daş ev, 5/4 orta blok. Su, qaz, işıq daimi. Nərimanov prokurorluğunun həyətində öz evimdir, orta təmirli. Qiyməti razılaşma ilə. Maklerlər narahat etməsin.**

**Əlaqə telefonu: (070) 399-01-00; (050) 234-64-67**

YENİ MÜSAVAT
N 82 (6696) 20 aprel 2017








# Əhalinin restoran yeməklərinə inamı azalıb - əsas motiv

## Toy sahibləri menyunu özləri hazırlaya bilərmi? Əməkdaşımızın müşahidələri maraqlı mənzərəni üzə çıxarıb...

**Son vaxtlar əhalinin kolbasa-sosis kimi ət məmulatlarına, restoran və kafelərdə verilən ət yeməklərinə marağı azalıb. Mətbuatda və sosial şəbəkələrdə ölmüş at və eşşək ətlərinin, mənşəyi bəlli olmayan digər heyvan cəmdəklərinin restoranlara verilməsi ətrafında müzakirələrin aparılması şadlıq saraylarına, restoran və kafelərə olan inamı da aşağı salıb.**

İndi ən çox müzakirə olunan məsələ - toy sahibi tərəfindən restoranın bir günlük icarəyə götürülməsi və süfrədə təqdim olunan yeməklərin ev şəraitində hazırlanıb restorana aparılmasının mümkünlüyü ilə bağlıdır. Kənd yerlərində bu problemsizdirsə, Bakıda fəaliyyət göstərən restoranlarda nəinki yeri icarəyə götürmək, süfrəni şəxsən təşkil etmək, hətta restoranın təqdim etdiyi menyuda iki növ salatı təxirə salmaq belə, mümkün deyil. Restoranlar bunu öz imiclərinə xələl gəlməsi kimi təqdim edərək icazə vermirlər.

Vəziyyəti yerində öyrənmək üçün Bakıdakı bir neçə şadlıq sarayına və restorana baş çəkdik. Əvvəlcə onu qeyd edək ki, jurnalist olduğumuzu bilən və mövzu haqqında eşidən bəzi restoranların administratorları danışmaqdan imtina etdilər. Bu səbəbdən müştəri qismində şadlıq evlərinin administratorları ilə görüşməyə, onlardan sualımızın cavabını almağa çalışdıq.

**Nizami rayonundakı "Xarı bülbül" şadlıq sarayının administratoruna menyudakı bir neçə salatı ixtisar etmək, əti isə özümüz alıb gətirmək şərtilə burada toy etmək istədiyimizi bildirdik. Administrator menyudakı qəlyanaltı və salatlarda ixtisar aparılmasına razı olsa da, ət məsələsində bir qədər tərəddüd etdi:** "Bizim restorana təmiz, halal ət gətirilir. Beyləqandan gətirilən heyvanlardır. Siz əti istədiyiniz yerdən alıb gətirin, biz burada çəkib, sizə aldığınız qiymətlə pulunu verərik. Biz də maraqlıyıq ki, ərzağımız yaxşı olsun, yeməklərimiz dadlı alınsın, müştəri razı qalsın. Ancaq bizim də şərtlərimiz var. 5 ay öncə bir müştərimiz oldu. Onlar da öz toylarında ət gətirəcəklərini dedilər. Biz də razılaşdıq. Yaxın qohumlarından biri 40 kiloqramlıq qoyun əti gətirdi. Çox yaşlı heyvan idi. Nə qədər israr etsələr də, icazə vermədik. Deməkdə məqsədim odur ki, kənardan belə ət gətirilsə də restoranın qəssabları həmin ətləri yoxlayır, təmiz olduğuna əmin olurlar. Axı bunun məsuliyyətini biz daşıyırıq. Zalların günlük icarəyə götürülməsi bizə sərf etmir. Ona görə ki, restoranın bir ümumi mətbəxi var. Digər zallarda olan toylarla üst-üstə düşəndə aləm qarışır. Toy sahibinin gətirdiyi aşpaz və yaxud işçilər bizim aşpazlar qədər işində mahir ola bilməz. Nəyin harada olduğunu, necə etməyi yaxşı bilmirlər. Bu da bizim işimizi çətinləşdirir və ləngidir".

**Administrator bildirdi ki, gələn müştərilərin əksəriyyəti menyuda bir çox salatları ixtisar etmək istəyirlər, lakin süfrənin kasıb görünməsi onların imicinə zərər vurur:** "Həmin salatlar masaya gözəllik verir. Etiraf edək ki, toya gələnlər ilk öncə masanın ümumi görünüşünə diqqət edirlər. Onu da qeyd edim ki, salatlar bir o qədər də xərc tələb etmir. Menyuda əsasən içkilər və isti yeməklər daha çox xərc istəyir. Belədirsə, camaat həyətində mağar qurub, toy edərdi. Restoran administratoru olaraq mən də sizin kimi düşünürəm. Pendir, qutab, blinçik, bozartma, toyuq olsa, bunlar kifayət edir. Lakin qeyd etdiyimiz kimi, hansı müştəri bunlarla kifayətlənər? Təbii ki, az sayda müştəri sadaladıqlarımla razılaşar. Salatlar, qəlyanaltıların çox olmasının əslində toy sahibinə xeyri var. Əgər bunlar olmasa, məclis iştirakçılarına ancaq ət yeməkləri verməlisən. Salatları menyudan çıxarsaq, menyu 2-3 manat bahalaşacaq. Bir toy üçün 200 kiloqram ət istifadə olunurdusa, bu rəqəm ikiqat olacaq. Bu isə toy sahibinin cibinə ziyandı. Elə müştəri də olur ki, salatların çox olmasını istəyir".

Qeyd edək ki, "Xarı bülbül" restoranında bir nəfər üçün stolun icarəsi 15 manatdır. Bu zaman süfrədə təqdim olunan bütün yeməklərin xərcini toy sahibi çəkməlidir.

**İkinci baş çəkdiyimiz "Golden Ring" şadlıq sarayının administratoru Əbdül Qasımov isə toy sahibinin istəyinə uyğun xidmət aparıldığını bildirdi:** "Artıq Bakı şəhərində şadlıq saraylarının icarəyə verilməsi məsələsi gündəmdədir. Bildiyiniz kimi, bu təcrübə Bakıətrafı rayon və kəndlərdə tətbiq edilir. Bu da tələbatdan asılıdır. Bu gün bizim restoranda da müştərilər bu cür məclis keçirmək istəsə, biz buna yox demərik. Bizim də bəlli şərtlərimiz var və toydan qazanc əldə etməyi nəzərdə tutmuşuq. Lakin fantastik rəqəm deyib, müştəri qaçırmaq bizim prinsipimiz deyil. Şişirtmə qiymətlərlə işləyənlərin icarə müqaviləsi real deyil. Bir şeyi də qeyd edim ki, restoran sahibi obyektini icarəyə verməyə də bilər. Bazar iqtisadiyyatıdır və restoran sahibi müstəqildir. Yalnız menyuda dəyişikliklər qəbul olunmalıdır. Digər tərəfdən, vətəndaşların da istəyi nəzərə alınmalıdır. Elə insanlar var ki, restoranın yeməklərini bəyənmir, salatından tutmuş, isti yeməklərinə kimi özü bişirmək istəyir. Bunlara da şərait yaradılmaldır. Şadlıq sarayları bu güzəştlərə getməlidirlər".

**Ə.Qasımov toy sahibinin gətirdiyi ət məhsullarının da təhlükəsizliyinin yoxlanıldığını dedi:** "Biz toy sahiblərinə mümkün qədər güzəştlər edirik. Lakin bizim də onlardan bir sıra vacib tələblərimiz var. Gətirdikləri ətin və başqa məhsulların təmiz olması vacibdir. Heyvanların kəsim yerləri, ətlərin saxlanma şəraiti detallı şəkildə öyrənilir. İcarə haqqını ödədikdən sonra hər şeyi müştərinin ixtiyarına buraxmırıq. Məsuliyyət birbaşa bizim üzərimizdə olduğu üçün gələn ət və ərzaq məhsullarının istifadəsinin yararlı olduğunu ondan tələb edirik. Söhbət yüzlərlə insanın qida təhlükəsizliyindən gedir".

"Golden Ring" şadlıq sarayında 600 nəfərlik zalda 1 nəfər üçün stolun qiyməti 10 manat, 400 nəfərlik zalda isə 12 manatdır.

❑ Məğrur MƏRD
❑ Fotolar müəllifindir

# Bakıda qızılın qiyməti ucuzlaşıb: bu, nə qədər davam edəcək?





**Dünya bazarında qızılın ucuzlaşması, eyni zamanda son günlər manatın məzənnəsində baş verən sabitləşmə Bakıda qızıl mağazalarındakı qiymətlərə də təsir edib.**

## Əgər ötən aylarda 583-585 əyarlı qızılın qramı təxminən 75-80 manata satılırdısa, hazırda bu rəqəm 65-75 manat arasında dəyişir

Belə ki, ilin əvvəli ilə müqayisədə qızılın qiymətində müəyyən qədər ucuzlaşma var. İqtisadçılar hesab edirlər ki, bu ucuzlaşma hələ bir müddət də davam edə bilər.

"Yeni Müsavat"ın əməkdaşı Bakıda yerləşən qızıl mağazalarında hazırkı qiymətlər və mövcud durumla tanış olub.

Öyrəndik ki, hazırda Bakıda yerləşən qızıl mağazalarında ötən ilin son ayları ilə müqayisədə qiymətlər təxminən hər qramına görə 5 dollar ucuzlaşıb. Satıcılar qiymətlərin manatın məzənnəsi ilə birbaşa əlaqəli olduğunu bildirdilər. Onların sözlərinə görə, malı xaricdən dollarla alıb manatla satdıqları üçün mövcud məzənnə qiymətlərə əsaslı təsir edir. Bazarda qiymətin ucuzlaşması alıcılıq qabiliyyətini də bir qədər artırıb.

Mərkəzi Univermaqda (MUM) yerləşən qızıl mağazalarında olduğumuz zaman müşahidə etdik ki, xeyli sayda insan qızılla maraqlanır. Satıcılar da təsdiqlədilər ki, toy mövsümü olduğu üçün qızıl almağa maraq göstərənlərin sayında artım var.




Lakin onu da qeyd edək ki, qızılın qiyməti manatın ikinci devalvasiyasından sonra iki dəfə bahalaşıb. Belə ki, əgər ikinci devalvasiyadan sonra 750 əyarlıq qızılın bir qramının qiyməti 40-45 manat idisə, hazırda bu 70-80 manat təşkil edir.

**Söhbət etdiyimiz satıcı İlkin Həsənov bildirdi ki, 585 və 750 əyarlıq qızılın qramında ucuzlaşma var:** "Əgər ötən aylarda 583-585 əyyarlı qızılın qramı təxminən 75-80 manata satılırdısa, hazırda bu, 65-75 manat arasında dəyişir. 750 əyyar isə modelindən asılı olaraq 85-90 manat arasında qiymətlə satılırdısa, hazırda bu da 5 dollar ucuzlaşıb. Komplektlərə gəlincə isə qiymətlər müxtəlifdir. Belə ki, 5 mindən-15 minə qədər komplekt tapmaq olar. Qızılın qiymətində ucuzlaşma hesab edirəm ki, hələ bir müddət davam edəcək. Manatın məzənnəsi sabit qaldıqca, biz də mala konkret qiymət qoya bilirik. Daha öncə isə mala qiymət qoyanda bilmirdik ki, mayanı çıxara biləcəyik, yoxsa yox".

Satıcı onu da qeyd etdi ki, qızılın qiymətinin bahalaşması insanların sarı qızıl almağa üstünlük verməsinə səbəb olub.

**İqtisadçı Natiq Cəfərli musavat.com-a bildirib ki, dünya bazarında qızılın qiymətində son zamanlar oynaqlıq müşahidə olunur:** "Bu, bir neçə faktorla bağlıdır. İngiltərədə növbədənkənar seçkilərlə bağlı açıqlamadan sonra qızılın qiymətində bir qədər düşmə oldu. Əslində qızıl güvənli "liman" kimi dünya birjalarının çalxalanması dönəmində investorların ən çox müraciət etdikləri yatırım vasitəsidir. Bundan başqa, Federal Ehtiyatlar Sistemi (FES) tərəfindən son zamanlar verilən açıqlamalar onu göstərir ki, faiz artımı bu il ərzində daha yumşaq şəkildə həyata keçirilə bilər. Üçüncü bir hal isə odur ki, Trampın seçkilərdən sonra bəzi məsələlərdə iqtisadi canlanma ilə bağlı vədləri var idi. Hələ ki bu canlanma müşahidə olunmur. Bu da qızılın qiymətlərinə təsir göstərir. O baxımdan deyə bilərik ki, qızılın qiymətində baş verən dəyişikliklər dünyadan gedən proseslərin nəticəsidir. Əgər doğrudan da FES nəzərdə tutduğu kimi bu il ərzində azı iki dəfə faiz artıracaqsa, bu, qızılın qiymətinə mənfi təsir göstərəcək. Yaxud da ABŞ-da doğrudan da iqtisadi canlanma baş verəcəksə, o zaman investorların bir qismi qızıldan imtina edib, qiymətli kağızlara və real sektora yönələ bilər. Bu da qızılın qiymətinin enməsinə səbəb olar. Lakin siyasi vəziyyətdən asılı olaraq, Yaxın Şərqdə, yaxud da Koreyada hər hansı qarşıdurmaların şahidi olsaq, o zaman qızılın qiyməti yenidən artacaq".

Onu da qeyd edək ki, sonuncu hərraclarda qızılın unsiyasının qiyməti 5,10 dollar azalaraq 1 289,00 dollara, gümüş isə 0,03 dollar azalaraq 18,24 dollara satılıb.

❑ Əli RAİS
❑ Fotolar müəllifindir

YENİ MÜSAVAT

Son səhifə

N 82 (6696) 20 aprel 2017



## Amerikada marixuana dükanı açıldı

Amerikanın Kolorado ştatında ilk dəfə tibbi marixuana dükanı açılır. Bu mağazada maşından çıxmadan narkotik almaq mümkündür. "Time"ın yazdığına görə, "Tumbleweed Express Drive-Thru" adlı mağazanın açılışı 20 aprelə planlaşdırılıb. 21 yaşına çatan hər kəs istirahət günləri, günorta saat 16.00-dan gecə yarısına qədər qanuni şəkildə preparat ala bilər. Mağazanın direktoru Mark Smit deyib ki, dünya KİV-lərinin onun biznesi barədə yazacağını təxmin etmirmiş. Bu minvalla amerikalı öz biznesini qanuni şəkildə marixuana ilə bağlayan iş adamına çevrilib. Onunla paralel olaraq bu işlə məşğul olanlardan biri də aktrisa Vupi Qoldberq və reper Snup Doq olub. Xatırladaq ki, Qoldberq də tibbi marixuananın satışı ilə məşğul olurdu. Onun satışını həyata keçirdiyi dərman qadınların menustrasiya dönəmində yaşadığı ağrıların qarşısını almaq məqsədi daşıyır. Bu dərmanlar rəsmi olaraq Leafs By Snoop brendi altında qeydiyyatdan keçib. ABŞ-ın federal qanunvericiliyinə görə, marixuana hələ də qadağan olunmuş vasitə sayılır. Hətta onun cüzi miqdarda saxlanılması da həbsə səbəb ola bilər. Amma ştatların əksəriyyətində ondan tibbi məqsədlərlə istifadə olunmasına razılıq verilib.

# Sinəsini satışa çıxardı





İngiltərədə gənc bir qadın istifadə olunmuş döş implantlarını 500 sterlinqə satışa çıxarıb. Adı açıqlanmayan qadın yeni bir silikon taxdırdığı üçün köhnəsindən bu cür istifadə etməyə çalışıb. İngiltərənin Surrey bölgəsində, e-bayda sinə implantını satışa çıxaran 25 yaşlı qadın bir neçə günün içində internetdə fenomen olub. İlk olaraq 18-ci ad günündə döşlərinə silikon taxdıran qadın 25 yaşına çatanda silikonlarını yeniləmək istədiyini deyir. Köhnəni isə kiminsə dəyərləndirə biləcəyini iddia edib. O, mediaya açıqlamasında "lütfən başqa sual verməyin. Mənə aid olan bir şeydən bir az pul qazanacam. Burda nə var ki?" deyib. Elanda qadın müxtəlif şəkillərini paylaşaraq silikonları üçün modellik edib. Amma mütəxəssislər iddia edir ki, nə olursa-olsun istifadə olunmuş bir implantın təkrar istifadəsi sağlamlıq problemlərinə səbəb ola bilər.

# Sahibsiz pişiklər üçün yataqlar hazırladılar

Tanınmış mebel istehsalçısı IKEA Kanadadakı pişik sığınacağında yaşayan pişiklər üçün gəlincik yataqları hazırlayıb. Kampaniya Torontoda yerləşən pişik sığınma evlərinə 10 yatacaq yeri, eləcə də 300 dollar məbləğində maddi yardım edib. Lenta.ru saytı "Metro"ya istinadən xəbər verir ki, pişiklər üçün yatacağın hazırlanması yeni ideya deyil. Bir neçə ay öncə Yaponiyada da bu dəb halını almış və ev heyvanı sahibləri onlara xüsusi yataqlar hazırlayıb, onun fotolarını internetdə yaymışdılar. Torontodakı bu sığınacaqda isə pişiklər nəinki yatır, eyni zamanda soyuq döşəmədə üşüyəndə ora hoppanıb istilənirlər. Sığınma evi kommersiya qurumu sayılmasa da, burada bütün sahibsiz heyvanlara yatacaq yeri yoxdur. Pişiklərdən bəziləri bu yatağı öz təyinatı üzrə istifadə edib, orda yatdıqları halda, bir çoxları da sadəcə odeyalın altında gizlənməyi tərcih ediblər.



## 70 yaşlı qadını qorillaya görə həbs etmək istədilər

Kembric sakini olan bir qadını eyvanından toxunma qorilla asdığı üçün nasizmdə suçlayıblar. Polislər 70 yaşlı Enn Fistin evinə gələndə bildiriblər ki, onlara pəncərədən asılan "qara bədənlə" bağlı şikayət olunub. Çünki kimsə bunu çox aşağılayıcı hesab edib. Fist isə hüquq-mühafizə orqanı nümayəndələrinə izah edib ki, toxuma işləri ilə məşğul olur və polislərə evindəki iki qutu yunu göstərib: "Qorillalar qara rəngdə olur və mən onu ağ rəngdə toxuya bilməzdim".

İnsidentdən sonra qadın deyib ki, o, oyuncaqlarından bəzilərini satır və alıcılarından heç biri bu günə qədər şikayət etməyib. Bundan başqa, Fist pəncərəsindən üzərində "şikayətçi ilə tanış olmaq istəyirəm" yazılmış bir elanı da asıb. Kembric polisinin mətbuat xidməti dəqiqləşdirib ki, oyuncağa görə hər hansı şikayət daxil olmayıb. Hüquq-mühafizə orqanları əməkdaşları isə qorilla fiqurunu "potensial rassist obyekt" adlandırıb.

## Qoroskop




**QOÇ** - Nəzərdə tutduğunuz əksər sahələrdə irəliləyişə nail olacaqsınız. Həmkarlarınızla ünsiyyətdə obyektiv olun. Öz müsahiblərinizə bacardığınız qədər güzəştə gedin. Böyüklərin məsləhətini qulaqardına vurmayın.

**BUĞA** - Müəyyən çalarlarına görə bəxtinizə ziddiyyətli təqvim düşüb. Qarşılaşdığınız proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə yönələcək. Pul məsələlərində ehtiyatlı olun.

**ƏKİZLƏR** - Saat 16-ya qədər nəzərdə tutduğunuz planların böyük əksəriyyətini həyata keçirməkdə çətinliyiniz olmayacaq. Ailə-sevgi zəminində isə yeni mərhələyə qədəm qoyacaqsınız.

**XƏRÇƏNG** - Həddindən ziyadə uğurlu ərəfədir. Mövcud sıxıntı və nigarançılığınızı aradan qaldırmaq üçün ətrafınızdakılar sizə yardımçı olacaqlar. Günün ikinci yarısı bu baxımdan daha münasibdir.

**ŞİR** - Əgər ixtiyarınızda olan bu təqvimdən zövq almaq istəyirsinizsə, oturaq işləri məhdudlaşdırın. Çünki ulduzlar bürcünüzə olduqca romantik görüş və əyləncələr bəxş edəcək. Buna hazır olun.

**QIZ** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün əhəmiyyətli vaxtdır. Boş dayanmaqdansa səylərinizi birləşdirib yalnız irəli getməlisiniz. İşıq ucu gələn bütün yollara baş vurun.

**TƏRƏZİ** - Bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Hansısa ciddi və riskli işlərə qol qoymamalısınız. Bu günün işini sabaha saxlamayın. Qərarlarınızda qəti olun.

**ƏQRƏB** - Günün ümumi görüntüsü işlərinizin normal tərzdə cərəyan edəcəyinə əsas verir. Hər hansı qanqaraçılıq və ya məyusluq ehtimalı yoxdur. Ailə zəminində isə hər şey ürəyinizcə olacaq.

**OXATAN** - Yaxın ünsiyyətdə olduğunuz insanların əksəriyyəti problemlərinizin həllində böyük rol oynayacaqlar. Bu, çıxardığınız qərarlardan, atdığınız addımlardan birbaşa asılı olacaq.

**OĞLAQ** - Maliyyə məsələlərində uğurlarınız mümkündür. Axşamı hər hansı məclisdə keçirməyiniz daxili nigarançılığınızı azaldacaq. Qonşu və qohumlarla münasibətləri məcrasından çıxarmayın.

**SUTÖKƏN** - Saat 14-ə qədər olan ərəfə istisna olmaqla, qalan saatları yüksək əhval-ruhiyyədə başa vuracağınız ehtimal olunur. Axşama yaxın darıxdığınız insanlara baş çəkməyə çalışın.

**BALIQLAR** - İxtiyarınızda olan bu təqvimdə aktivliyi artırmağınız vacibdir. Bunun öhdəsindən gəlsəniz, ulduzlar sizə yardımçı olacaq. Yaxın adamlarınızdan xəstələnən varsa, mütləq ona baş çəkin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Anestezioloq qonşunun itini yatızdırdı, sonra da oğurladı



İstanbulda Tevfik C. adlı anestezioloq qonşusunun itinə öncə narkoz iynəsi vurub, sonra da onu qaçırıb. Meşəlik əraziyə atılan it təxminən bir ay sonra tapılıb. İtin sahibi olan Güzelhan ailəsi isə 1 ay öncə binanın həyətində saxladıqları heyvanın itməsindən şübhələnib, binanın təhlükəsizlik kameralarına baxıblar. Görüntülərdə ansteziologun qonşunun itə iynə vurub bayıltması, ardınca isə maşının baqajına qoyması öz əksini tapıb. Hadisədən bir ay sonra it tapılıb. Məlum olub ki, qonşuları itin davamlı hürməsindən narahat olduğu və yuxusuz qaldığı üçün bunu edib: "Qonşum dedi ki, digər itlərə də iynə vurub azdırmağı planlaşdırsa da, bizimkindən başqa hamısı qaçıb". İtin sahibləri qonşuları barədə polisə şikayət veriblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100